

“QURBAN İBADƏTİ MÜSƏLMAN ÜÇÜN HƏM DƏ MƏNƏVİ YÜKSƏLİŞ VASİTƏSİDİR”

# FƏDAKARLIĞIN, PAYLAŞMAĞIN SİMVOLU

Qurban bayramı qardaşlığı, dostluğu, fədakarlığı, xeyirxahlığı ehtiva edir. Bu günlər həm ibadət, həm də sosial həmrəylik baxımından xüsusi əhəmiyyət daşıyır.

**İyunun 6-7-də Azərbaycanda Qurban bayramı qeyd edilir. Bu bayram İslam dünyasında iki müqəddəs bayramlardan biridir. Bu günlərdə insanlar bir-birinə qarşılıqlı hörmət və sevgi ilə yanaşır, ehtiyacı olanlara yardım edir və birlikdə bayramın sevincini bölüşürlər.**

**Qurban bayramında kəsilən heyvanlarla bağlı da şərtlər var. Hər heyvanın ətini qurbanlıq hesab edə bilməzik. Dosent Elvüsal Məmmədov deyir ki, qurbanlıq heyvan kimi qoç, iribuynuzlu mal-qara (məsələn, dana) və ya dəvə seçilə bilər.**

SƏHİFƏ 7-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

6 İYUN CÜMƏ 2025 № 21 (4222) Qiyməti - 60 qəpik www.kaspi.az






## HİNDİSTANIN YENİ MÜHARİBƏ AVANTÜRASI

Hindistan və Pakistan arasında aktiv döyüş əməliyyatları sona çatsa da, sakitlik uzun çəkməyə bilər. Çünki Hindistanın hədələyici bəyanatları səngimir. Baş nazir Narendra Modi yeni müharibədən dəm vurur.

SƏHİFƏ 5-də



## PAŞİNYAN VƏ KEŞİŞLƏRİN SON SAVAŞI

Mübarizədə qurşaqdan aşağı zərbələr mərhələsinin başlanması son döyüşün həqiqətən də qanlı olacağına dəlalət edir. Kilsə “niyə Paşinyan rəsmi və dini nikahda deyil”, - deyə suallar verir, o da əks ittihamlarla çıxış edir.

SƏHİFƏ 6-da



## KÜRÜ İSTEHSALINDA REKORD ARTIM

Kürü istehsalımız beş dəfə artıb. Mütəxəssislərin fikrincə, istehsal üçün potensialımız genişdir. Bu templə illik 40 tonluq istehsal real olacaq. Bu göstərici bizə dünya üzrə ilk onluğa daxil olmaq imkanı yarada bilər.

SƏHİFƏ 13-də




AZƏRBAYCAN BU GÜN QLOBAL SƏVİYYƏDƏ APARICI DÖVLƏTƏ ÇEVRİLİB

# DÜNYANIN ENERJİ NƏHƏNGLƏRİ BAKIDA

“Bakı Enerji Həftəsi” həm regional, həm də beynəlxalq səviyyədə etibarlı platforma kimi formalaşıb. 39 ölkədən 267 şirkətin nümayəndəsi Bakıda yeni imkanları və perspektivləri müzakirə edib.

**REGİONUN APARICI SƏNAYE TƏDBİRİ**

Regionun aparıcı sənaye tədbiri olan və hər il qlobal enerji liderlərini bir araya gətirən “Bakı Enerji Həftəsi” həm regional, həm də beynəlxalq səviyyədə etibarlı platforma kimi formalaşaraq, qlobal tədbirlər təqvimində mühüm və gözlənilən hadisələrdən birinə çevrilib.

**İXRAC COĞRAFİYASI GENİŞLƏNDİRİLİR**

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan ixrac coğrafiyasının genişləndirilməsi üçün bəzi ölkələrlə danışıqlar mərhələsindədir. Boru kəməri ilə müəyyən coğrafiyanın qazla təmin edilməsi baxımından Azərbaycan bu gün qlobal səviyyədə aparıcı dövlətə çevrilib.

SƏHİFƏ 3-də

“13 yaşımda günə 150 dollar qazanırdım”

# ABŞ-DƏ ŞİRKƏTİ BİRİNCİ SEÇİLƏN AZƏRBAYCANLI



İnsan həyatını topa bənzədir. Deyir ki, top özü-özünə havaya qalxa bilmir, o yerə zərbə ilə vurulmalıdır ki, sıçraya bilsin. Yerə vurulmaq anı isə bizə verilən dərsdir. Hesab edir ki, ya dərs almalıyıq, ya qarşı çıxmalıyıq. Dərs aldıqda həyat sənə yaxşı davranır və top kimi üzü yuxarı hərəkət edirsən.

Müsahibimiz tanınmış sahibkar, süni intellekt modelləri vasitəsilə risklərin təhlili, fırıldaqçılığın aşkarlanması və məlumat məxfiliyinin qorunmasında bizneslərə həllər təqdim edən “Polygraf AI”nin baş icraçı direktoru, Azərbaycanı xaricdə ticarətçi deyil, texnologiya ölkəsi kimi tanıtmağı qarşısına məqsəd qoyan Yaqub Rəhimovdur.

SƏHİFƏ 8-9-da




## 882 SAXTA PUL NİŞANI TƏDAVÜLDƏN ÇIXARILIB

Ötən il Mərkəzi Bankın rəsmi valyuta ehtiyatlarının 87%-ni ABŞ dolları, 3%-ni avro, 2%-ni Çin yuanı, 1%-ni İngiltərə funt-sterlinqi, 7%-ni isə XBH (Beynəlxalq Valyuta Fondunun xüsusi borcalma hüquqları) təşkil edib.

SƏHİFƏ 2-də



## YERLİ ƏNCİRƏ MARAQ AZALIB?

Əncir idxalımız 62 faiz artıb. Lakin bu meyvə ilə bağlı qədim zamanlardan gələn bağçılıq ənənələrimiz var idi. Əgər əncirlə bağlı da ixracdan asılı düşsək, bu zaman həmin ənənəni itirə bilərik.

SƏHİFƏ 15-də



## ALTI QALEREYA, 5000-DƏN ÇOX ƏSƏR

Şarjadakı İslam Sivilizasiyası Muzeyində V əsrdən başlayaraq XIV əsrə qədər dövrü əhatə edən unikal eksponatlar nümayiş etdirilir. Muzeyin qalereyaları ziyarətçiləri incəsənət, erkən elmi yeniliklər barədə məlumatlandırır.

SƏHİFƏ 14-də



Bütün müstəvilərdə qələbə qazanan ölkə

SƏHİFƏ 4-də



SOCAR-ın sıfır emissiya hədəfi

SƏHİFƏ 10-da



Uşaq oyun meydançaları ilə bağlı yenilik

SƏHİFƏ 12-də



Havalar tikintiləri də “vurub”

SƏHİFƏ 11-də



Klublarımızdan avrokubok gözləntiləri

SƏHİFƏ 16-da



## İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQINI TƏBRİK EDİB

Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Təbrikdə deyilir:

"Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzularımı yetirirəm.

Dünya müsəlmanlarının mənəvi birlik və vəhdət rəmzi olan Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə bərabərliyə, qardaşlığa və fədakarlığa dəvət edir.

Cəmiyyətimizdə humanizmi və xeyirxahlıq duyğularını daha da gücləndirən Qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və təntənə ilə keçirilir. Bu günlərdə dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, saf niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban bayramı günlərində bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!"



## ÇİN DÖRDÜNCÜ BÖYÜK TİCARƏT TƏRƏFDAŞIMIZDIR

Çin Azərbaycanın dördüncü böyük ticarət tərəfdaşına çevrilib. "Report" xəbər verir ki, bunu iqtisadiyyat nazirinin I müavini Elnur Əliyev Azərbaycan-Çin İqtisadi və Ticarət Əməkdaşlığı Konfransında bildirib. Onun sözlərinə görə, əlaqələrin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi ticarət dövriyyəsinin genişləndirilməsi üçün böyük imkanlar açır: "Belə ki, bu ilin yanvar-aprel aylarında Azərbaycan və Çin arasında ticarət dövriyyəsi 37% artaraq 1,4 milyard ABŞ dollarını üstələyib".

E. Əliyev vurğulayıb ki, Azərbaycan ticarət və şərab evləri artıq Çinin Pekin, Şanxay, Urumçi, Tsindao, Çendu, Nankin və Çjantszyatsze şəhərlərində fəaliyyət göstərir: "Azərbaycan Ticarət Evi Çinin məşhur e-kommersiya platforması olan "JD"də də aktivdir".

# 882 SAXTA PUL NİŞANI TƏDAVÜLDƏN ÇIXARILIB

Ötən il Azərbaycan Mərkəzi Bankının rəsmi valyuta ehtiyatlarının 87%-ni ABŞ dolları, 3%-ni avro, 2%-ni Çin yuanı, 1%-ni İngiltərə funt-sterlinqi, 7%-ni isə XBH (Beynəlxalq Valyuta Fondunun xüsusi borcalma hüquqları) təşkil edib.

2024-cü ildə Azərbaycan Mərkəzi Bankı (AMB) dövriyyədən 5,73 milyard manatlıq pul nişanı çıxarıb, dövriyyəyə 5,86 milyard manatlıq pul nişanı buraxıb. Bu barədə qurumdan bildirilib. Məlumata görə, son nəticədə tədavüldə nağd pul kütləsi 0,13 milyard manat və yaxud 0,8% artaraq ilin sonuna 17,44 milyard manat təşkil edib. Hazırda milli valyuta üzrə ehtiyatlar 8,9 milyard manat təşkil edir ki, bu da iqtisadiyyatın 2026-cı ilin sonuna qədər tələbatının ümumilikdə ödənilməsi üçün yetərlidir.

### NAĞDSIZ ƏMƏLİYYATLARIN MƏBLƏĞİ 60,9% ARTIB

Məlumatda AMB-nin Banklararası Kart Mərkəzinin ötənilki fəaliyyəti də açıqlanıb. Belə ki, mərkəz üzərindən milli valyutada 30,6 milyard manat, xarici valyutada isə 69,3 milyon ABŞ dolları və 29,6 milyon avro dəyərində əməliyyat emal olunub. Ötən il ödəniş kartları ilə ölkə daxilində aparılmış nağdsız əməliyyatların məbləği əvvəlki ilə nisbətən 60,9% artaraq 78,9 milyard manat təşkil edib. Əvvəlki illə müqayisədə ölkədə elektron ticarət vasitəsilə aparılan əməliyyatların sayı 83,4%, məbləği isə 69,8% artıb. İl ərzində ölkə daxilində ödəniş kartları ilə aparılan nağdsız ödənişlərin xüsusi çəkisi 8,6 faiz bəndi artaraq 64,2% olub.

### AMB-NİN VALYUTA EHTİYATLARININ TƏRKİBİ

AMB-nin rəsmi valyuta ehtiyatlarının tərkibi də açıqlanıb. Bildirilib ki, bu ehtiyatların 87%-ni ABŞ dolları, 3%-ni avro, 2%-ni Çin yuanı, 1%-ni İngiltərə funt-sterlinqi, 7%-ni isə XBH (Beynəlxalq Valyuta Fondunun xüsusi borcalma hüquqları) təşkil edib.

Bütövlükdə, valyuta ehtiyatları yüksək gəlirlilik və geosiyasi/geoiqtisadi reallıqlardan irəli gələn yüksək qeyri-müəyyənlik mühitində, pul siyasətinin dəstəklənməsinə xidmət edən əməliyyat transı və gəlirliliyin artırılması məqsədilə saxlanılan investisiya transına bölünməklə idarə edilib, alternativ valyutalara investisiya edilməsi istiqamətində işlər aparılıb.





## 155,2 MİN ƏDƏD PUL NİŞANI DƏYİŞDİRİLİB

Həmçinin, AMB 2024-cü ildə də pul nişanlarının saxtalaşdırılmasına qarşı mübarizəni, onun hüquq-mühafizə orqanları ilə koordinasiyasını diqqət mərkəzində saxlayıb, 882 saxta pul nişanını tədavüldən çıxarıb.

Məlumata görə, ötən il milli valyutada 379 ədəd (32 611 manat), xarici valyutada isə 503 ədəd saxta pul nişanı aşkarlanaraq tədavüldən çıxarılıb və müvafiq tədbirlərin görülməsi üçün hüquq-mühafizə orqanlarına təqdim edilib. İl ərzində əhalidə olan yararsız pul nişanlarının ekspertizaya qəbul edilməsi və dəyişdirilməsi məqsədilə AMB-nin Bakıda və ərazi idarələrində yaradılmış nağd pul ofisləri fəaliyyətini davam etdirib, vətəndaşlardan 155,2 min ədəd (6,7 milyon manat) pul nişanı qəbul edilərək dəyişdirilib.





## SIĞORTA ŞİRKƏTLƏRİ VƏ BROKERLƏRİNDƏ YOXLAMALAR

Bundan əlavə, AMB 2024-cü ildə dörd sığorta şirkətində və dörd sığorta brokerində hərtərəfli yoxlamalar həyata keçirib. Azərbaycan Prezidentinin 31 yanvar 2024-cü il tarixli fərmanı əsasında Dövlət Sığorta Kommersiya Şirkəti - "Azərsığorta" ASC-yə, eləcə də könüllü müraciət əsasında "Bakı Sığorta" ASC-yə verilmiş lisenziyalar ləğv edilib, sığortalıların və kreditorların hüquqlarını qorumaq məqsədilə mütəmadi nəzarət tədbirləri həyata keçirilməkdədir.

Hesabat ilində sığorta sektoru üzrə beynəlxalq qanunvericiliyə və sığorta prinsiplərinə uyğun olaraq hazırlanan bir sıra normativ-hüquqi sənədlər təsdiq edilib.

# DÜNYANIN ENERJİ NƏHƏNGLƏRİ BAKIDA

"Bakı Enerji Həftəsi" həm regional, həm də beynəlxalq səviyyədə etibarlı platforma kimi formalaşıb. 39 ölkədən 267 şirkətin nümayəndəsi Bakıda yeni imkanları və perspektivləri müzakirə edib.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Dünyanın enerji nəhəngləri yenidən Azərbaycan paytaxtında bir araya gəliblər. "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən tədbirlərdə energetika sahəsində mövcud vəziyyəti, yeni imkanları və perspektivləri müzakirə etmək üçün 39 ölkədən 267 şirkətin nümayəndəsi ölkəmizə səfər edib. Regionun aparıcı sənaye tədbiri olan və hər il qlobal enerji liderlərini bir araya gətirən "Bakı Enerji Həftəsi" həm regional, həm də beynəlxalq səviyyədə etibarlı platforma kimi formalaşaraq, qlobal tədbirlər təqvimində mühüm və gözlənilən hadisələrdən birinə çevrilib. Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak edib.

### SABİT SİYASİ SİSTEM

Tədbirdə çıxış edən Prezident İlham Əliyev Azərbaycanın energetika sahəsində əldə etdiyi nailiyyətlər, ölkəmizin dünyanın enerji təhlükəsizliyindəki rolu, gələcək perspektivlər barədə danışıb. Dövlət başçısı bildirib ki, bu gün Azərbaycan sabit siyasi sistemə və inkişaf etməkdə olan iqtisadiyyata malik ölkədir: "Neft və qazın bizim ÜDM-də payı təqribən 30 faizdən artıqdır. Azərbaycan genişmiqyaslı islahatlar həyata keçirir. Bizim iqtisadiyyatımız özünü təmin edir. Bizim xarici borcumuzun səviyyəsi ÜDM-in 7 faizindən azdır və maliyyə ehtiyatlarımız borcumuzu 14 dəfə üstələyir".




## Prezidentdən Cənub Qaz Dəhlizi vurğusu

İlham Əliyev qeyd edib ki, Azərbaycan tərəfdaşları ilə birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa edib: "Əlbəttə, bunların tacı Azərbaycanın dəniz yataqlarından İtaliyanın sahilinə qədər uzanan 3500 kilometrlik Cənub Qaz Dəhlizidir. Əlbəttə, bir çox digər ölkələrin enerji təhlükəsizliyinə sərmayə yatırımı Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Biz anlayırıq ki, bundan sonra da enerji, neft və qaz bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayacaqdır".

Prezident bildirib ki, Azərbaycan ixrac coğrafiyasının genişləndirilməsi üçün bəzi ölkələrlə danışıqlar və sərmayə qoyuluşu mərhələsindədir. Boru kəməri ilə müəyyən coğrafiyanın qazla təmin




edilməsi baxımından Azərbaycan bu gün qlobal səviyyədə aparıcı dövlətə çevrilib: "Bütün bunlar müsbət dinamikadır və biz enerji sahəmizin inkişafının təkcə Azərbaycanın potensialına deyil, həmçinin qonşuluğumuza da töhfə verdiyini görürük. Beləliklə, enerji resursları düzgün idarə edilirsə, investorlar, tranzit ölkələr və istehsalçılar arasında əməkdaşlıq məhz bu səviyyədədirsə, o zaman uğur əldə edilir".

### YAŞIL ENERJİYƏ YATIRIM

Azərbaycanın enerji gündəliyi tək ənənəvi enerji mənbələrinə əsaslanmır. Burada bərpa olunan yaşıl enerji mənbələrinə də əhəmiyyətli investisiya yatırılır. Bu barədə də danışan Prezident İlham Əliyev qeyd edib ki, biz 2030-cu ilədək 6,5 giqavat həcmində istehsal edilə biləcək bərpaolunan enerji gücünə malik olacağıq. Bu da bizim ümumi enerji istehsalımızın 35 faizdən çoxunu təşkil edəcək: "Yəni, Azərbaycanın yaşıl enerji gündəliyi olduqca iddialıdır. Neft və qazla zəngin olan ölkənin xarici investorlarla bərabər yaşıl enerjiyə sərmayə qoyması bizim məsuliyyətimizi nümayiş etdirir".

## Enerji sahəsində ABŞ-Azərbaycan tərəfdaşlığı



Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyinin təminində artan rolu dünyanın aparıcı dövlətləri tərəfindən də tam olaraq dəstəklənir. Bakı ilə energetika sahəsində əməkdaşlıq imkanlarının daha da genişləndirilməsinin önəmi xüsusi olaraq vurğulanır. Bunu ABŞ Prezidenti Donald Trampın 30-cu Bakı Beynəlxalq Neft və Qaz Sərgisi ilə bağlı məktubunda da görmək mümkündür. Ağ Ev rəhbəri bildirib ki, bu tədbir Azərbaycanın həqiqətən də regionda enerji sektorunda liderliyini təcəssüm etdirir.

Mövcud beynəlxalq vəziyyətdə Avropanın enerji təhlükəsizliyində artan rolumuzu elə köhnə qitənin ali şəxsləri də etiraf edir. Açılış mərasimində çıxış edən Avropa Komissiyasının Energetika Baş idarəsinin direktoru Kristina Lobilyo Borreronun sözlərinə görə, Rusiya-Ukrayna müharibəsi göstərdi ki, enerjidən silah qismində istifadə oluna bilər. Avropa İttifaqı özünün enerji sistemi tarixində şaxələndirməyə, bərpaolunan enerji mənbələrinə və tərəfdaşlıq münasibətlərinə əsaslanan yeni fəsil açır: "Azərbaycan bu yeni fəsildə güclü tərəfdaşdır. Amma hələ yolun sonuna çatmamışıq. Mayın 6-da Avropa Komissiyası Rusiya enerjisindən uzaqlaşmağın yollarını müəyyən edən "Repower EU" adlı yeni yol xəritəsini təqdim etdi. Azərbaycan qazının Cənub Qaz Dəhlizi vasitəsilə nəqli, o cümlədən Trans-Adriatik Boru Kəmərinin 2026-cı ilə qədər planlaşdırılan genişləndirilməsi bu səylərin mühüm tərkib hissəsidir. Amma bizim tərəfdaşlığımız təkcə qazla bağlı deyil. Söhbət sabahın enerji sisteminin qurulmasından gedir. Bu, bərpaolunan elektrik enerjisi, hidrogen və inteqrasiya olunmuş enerji sistemlərinə sərmayə qoymaq deməkdir. Azərbaycan bərpaolunan enerjinin əsas istehsalçısı olmaq potensialına və ambisiyasına malikdir. Dənizdə külək və Günəş enerjisini inkişaf etdirmək planlarınızı alqışlayırıq və Azərbaycanın nəhəng bərpaolunan enerji potensialını dəstəkləmək üçün birgə işi davam etdirməyə hazırıq".

# BÜTÜN MÜSTƏVİLƏRDƏ QƏLƏBƏ QAZANAN ÖLKƏ

Prezident İlham Əliyev: “Yenə də deyirəm, siz bu qələbəyə layiqsiniz və bütövlükdə qələbələr Azərbaycana yaraşır. Həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında biz qələbə qazanan ölkəyik”.




**FUAD ABASOĞLU**

Azərbaycan minifutbol üzrə həm Avropa, həm dünya çempionudur. Üç il öncə Slovakiyada “köhnə qitə”nin ən güclüsü adını qazanan milli komandamız bu dəfə Bakıdakı Milli Gimnastika Arenasında 32 komandanın iştirakı ilə keçirilən mundialda bütün rəqiblərindən üstün olaraq planetin “bir nömrə”si oldu.

### TARİXİ UĞURA DÖVLƏT BAŞÇISI SƏVİYYƏSİNDƏ VERİLƏN DƏYƏR

Minifutbol yığmamızın möhtəşəm zəfəri, təbii ki, diqqətdən kənar qala bilməzdi. Millimizin tarixi uğuruna ən yüksək dəyəri Azərbaycan Prezidenti İlham Əliyev verdi. Dövlət başçısı federasiya rəhbərliyini və komanda üzvlərini qəbul edərək, hər kəsi qürurlandıran fikirlər səsləndirib: “Çempionatı izləyənlər öz gözləri ilə bizim oyunçularımızın tam üstünlüyünü görə biliblər. Mən oyunlarınızın son dördünü izləmişəm və tam əminliklə deyə bilərəm ki, bu qələbə ədalətli mübarizədə qazanılmış qələbədir. Siz bu qələbəyə layiqsiniz”.

İlham Əliyev Azərbaycanın bütün müstəvilərdə qələbə qazanan ölkə olmasını xüsusi vurğulayıb: “Yenə də deyirəm, siz bu qələbəyə layiqsiniz və bütövlükdə qələbələr Azərbaycana yaraşır. Həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında biz qələbə qazanan ölkəyik. Məhz bizim istedadlı və peşəkar gənclərimiz bu qələbə sevincini bizə gətirirlər”.

Dövlət başçısı komandanın tamamilə Azərbaycanda doğulub boya-başa çatmış idmançılardan təşkil olunmasının xüsusi qürur hissi yaratdığını söyləyib:

“Yığma komandamızın müxtəlif inkişaf mərhələləri var idi və bu gün biz qələbə mərhələsində görüşürük. Təbii ki, xarici mütəxəssislərin, bəzən oyunçuların da müəyyən payı olub. Amma bu gün Azərbaycan milli komandası sırf Azərbaycanda doğulmuş, boya-başa çatmış gənclərdən ibarətdir və bu da xüsusi qürur hissi oyadır”.

### “ARZU EDİRƏM Kİ, BU QƏLƏBƏLƏRİN DAVAMI OLSUN”

Təbii ki, uğuru əldə etdikdən sonra onu qoruyub saxlamaq da çox önəmlidir. Elə Prezident İlham Əliyev də görüş zamanı minifutbolçuların diqqətinə bu məqamı çatdırıb: “Arzu edirəm ki, bu qələbələrin davamı olsun. Əlbəttə ki, bu titulu qorumaq o qədər də asan olmayacaq. Mübarizə çox gərgin gedirdi və təbii ki, dünya çempionatında təmsil olunan komandalar ən güclü komandalardır. Ancaq hesab edirəm ki, gələcəkdə xalqımızı sevindirmək və Azərbaycanın idman şöhrətini daim yüksəklərdə saxlamaq üçün sizin böyük imkanlarınız var”.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva sosial şəbəkə hesablarında paylaşım edərək komandamızı çempionluq münasibətilə təbrik edib: “Azərbaycan minifutbol yığması dünya çempionatının qalibidir! Komandamıza parlaq qələbəyə görə təşəkkür edirəm! Sizinlə fəxr edirik! Milli yığmamızın bütün üzvlərinə möhkəm cansağlığı, güc, enerji və yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!”

## “ÖLKƏ BAŞÇISINA DƏRİN TƏŞƏKKÜRÜMÜZÜ BİLDİRİRİK”

Azərbaycanda idman dövlət siyasətinin tərkib hissəsidir. Bu səbəbdən idmanın bütün növləri dövlətimiz, şəxsən Prezident İlham Əliyev tərəfindən böyük dəstək görür. Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov da dövlət başçısının dəstəyini xüsusi vurğulayıb və bunun sayəsində tarixi uğura imza ata bildiklərini qeyd edib: “Prezident İlham Əliyevin dəstəyini unutmamalıyıq. Onun bizə dəstəyi, xeyir-duası sayəsində qələbə qazana bildik. Bunun üçün ölkə başçısına dərin təşəkkürümüzü bildiririk. Daim dövlətin dəstəyini hiss edirik. Bundan sonra da gənc nəslin minifutbola cəlb olunması üçün əlimizdən gələni edəcəyik”.

10 ildən az müddətdə minifutbolda qazanılan nailiyyətlər Azərbaycanın bu sahədə ən yaxşılardan olduğunu deməyə əsas verir. Minifutbol Federasiyası 2017-ci ildə yaradılıb və artıq ölkəmiz həm Avropa, həm də dünya çempionudur. Hətta klub səviyyəsində də “Birbaşa Bakı” Çempionlar Liqasının qalibi adını qazanıb.

Xatırladaq ki, məşhur simalar, müxtəlif ölkələrin Azərbaycandakı səfirlikləri uğur münasibətilə milli komandamızı və xalqımızı təbrik ediblər. Komandamızın nailiyyəti hətta argentinalı futbol ulduzu Lionel Messinin də diqqətindən kənar qalmayıb. O, videomüraciətlə xalqımıza təbriklərini çatdırıb.



## MİLLİMİZİ ZİRVƏYƏ APARAN YOL



Məlumat üçün bildirək ki, A qrupunda yer alan millimiz ilk oyunda Bəhreynin müqavimətini qıra bilməsə də, ardınca mükəmməl sürət yığdı. Elşad Quliyevin rəhbərlik etdiyi kollektiv sonrakı görüşlərdə Sloveniya və Mavritaniyanı üstələyərək pley-offa adladı. Burada rəqibi son dünya çempionu Rumıniya millisi idi. Penaltilər seriyasında qazanılan qələbə artıq Azərbaycanı mundialın əsas favoritinə çevirmişdi. Yarımfinalda İngiltərənin müqaviməti də millimizə mane ola bilmədi. Finalın bir addımlığında Monteneqronu üstələyən “öz uşaqlarımız” iyunun 1-i gününü Azərbaycan idman tarixinə qızıl hərflərlə yazdılar. Həmin gün komandamız final qarşılaşmasında Macarıstan üzərində parlaq qələbə qazandı – 4:2.

Bu, 2022-ci ildə qazanılan Avropa çempionluğundan sonra yığmamızın titul kolleksiyasını tamamlaması anlamına gəlirdi. Doğma meydan, möhtəşəm azarkeş dəstəyi ilə komandamız bütün oyunlarda rəqiblərindən bir baş üstün çıxış edərək Azərbaycan xalqını sevindirməyi bacardı.

# HİNDİSTANIN YENİ MÜHARİBƏ AVANTÜRASI

Hindistanın hədələyici bəyanatları səngimir. Baş nazir Narendra Modi yeni müharibədən dəm vurur. Onun hökuməti seçki öncəsi yenidən aqressiv addımlar ata bilər.



AZƏR NURİYEV

Hindistan və Pakistan arasında aktiv döyüş əməliyyatları sona çatsa da, sakitlik uzun çəkməyə bilər. Çünki Hindistanın hədələyici bəyanatları səngimir. Baş nazir Narendra Modi yeni müharibədən dəm vurur və bəyan edir ki, münaqişəyə nöqtə qoyulmayıb. Müharibə əhval-ruhiyyəsində olan baş nazirin bu yanaşması isə bir növ davadan sonra əl-qol atmağa bənzəyir.

### HİNDİSTAN BAŞ NAZİRİNİN TƏHDİDLƏRİ

O, Qərbi Benqaliya ştatında çıxışında bildirib: "Benqal torpağında 1,4 milyard hindistanlı adından bəyan edirəm ki, "Sindur" əməliyyatı hələ başa çatmayıb". Modinin sözlərinə görə, ölkəsi terrorizmə qarşı sıfır dözümlülük siyasətini qəbul edib və "əgər indi Hindistana qarşı terror hücumu həyata keçirilərsə, qarşı tərəf bunun üçün yüksək bədəl ödəməli olacaq".

Baş nazirdən geri qalmayan müdafiə naziri Racnath Sinqh isə bildirib ki, son hadisələrə reaksiyaları güclü, lakin təmkinli olub. Xeyli sayda qırıcı təyyarəsi vurulan hindistanlı nazir vurğulayıb ki, "Sindur" əməliyyatı tarazlaşdırılmış, lakin qətiyyətli olub.

Əslində Modi və müdafiə nazirinin son açıqlamaları bölgədə təhlükəsizlik üçün ciddi təhdiddir və onlar bu bəyanatları verməklə daxili siyasi gündəmi manipulyasiya etməyə çalışırlar. Terrorla mübarizə adı altında regional gərginliyi dərinləşdirmək və hərbi əməliyyatlara legitimlik görüntüsü vermək istənilir. Bütün bu proseslər Hindistanın əslində terrorla deyil, bölgədə güc siyasəti və hegemonluq iddialarına qarşı çıxan dövlətlərlə müharibə planladığını göstərir. Halbuki, terror bəhanəsi ilə qonşulara qarşı təcavüz BMT prinsiplərinə və beynəlxalq hüquqa ziddir. Görünən odur ki, Hindistan daxili siyasi problemlərini ört-basdır etmək üçün xarici düşmən obrazı yaratmağa çalışır.



## İQTİDAR NÜFUZUNU İTİRİR

Hindistan rəhbərliyi uğursuz əməliyyat ilə əhali arasında nüfuzunu itirib. Onlar yenidən etimad qazanmaq üçün seçki öncəsi aqressiv addımlar ata bilərlər.

Xatırladaq ki, Hindistan və Pakistan arasında gərginlik apreldə başlayıb. 22 aprel tarixində "Lashkar-e-Taiba" qruplaşmasının döyüşçüləri mübahisəli Cammu və Kəşmir bölgəsində Pahalqam turizm şəhərində terror aktı törədiblər, nəticədə 25 hindistanlı və 1 nepallı həlak olub. Hindistan heç bir fakt göstərmədən terror aktında Pakistanın kəşfiyyat xidmətini (ISI) günahlandırıb. Təxminən iki həftə ərzində Pakistan və Hindistan arasında söz atışması davam edib. 7 mayda Hindistan hərbi əməliyyatlara başlayıb. Pakistan buna raketlər və pilotsuz uçuş aparatları ilə cavab verib. 10 mayda Pakistan və Hindistan ABŞ-nin vasitəçiliyi ilə danışıqlara başlayıb və atəşkəsə razılaşıblar. Mayın 12-də hərbi əməliyyatlar dayandırılıb.

### HİNDİSTAN MOSKVADAN VƏ QƏRBDƏN DƏSTƏK UMUR

Baş verənlər fonunda Yeni Delhi beynəlxalq reaksiyadan narazıdır və böyük oyunçuların dəstəyini qazanmaq istəyir. Bu məqsədlə Moskvaya ölkənin bütün partiyalarını təmsil edən Hindistan deputatlarının qrupu gəlib. Onlar orada iddia ediblər ki, Pakistana zərbələr ədalətli olub. Deputatlar deyiblər ki, Rusiyanın və digər mühüm ölkələrin Hindistanı dəstəkləməsini istəyirlər. Maraqlıdır ki, hindistanlı deputatlar Rusiyadan Avropaya yollanıblar. Yeni Delhinin narahatlıq üçün çox səbəbi var. Belə ki, Avropa ölkələri münaqişə zamanı bərabər məsafəli mövqe tutublar. Donald Tramp isə Hindistan və Pakistan arasında hərbi əməliyyatları, yəni Hindistanın "Sindur" əməliyyatını rüsvayçılıq adlandırıb. Buna görə də Hindistan Rusiya ilə hərbi sövdələşməni davam etdirməyə qərar verib və S-400 "Triumf" ZRK-nin yeni partiyasının alınmasını müzakirə edir. Bəziləri hesab edir ki, qısa müddətdə gərginliyin azaldılması üçün beynəlxalq vasitəçilər (xüsusən ABŞ) işə qoşula bilər. Ancaq münasibətlərin tam normallaşması çətin görünür. Orta müddətdə gərginliyin azaldılması üçün su təhlükəsizliyi məsələsi yeni bir münaqişə cəbhəsi ola bilər. Hindistanın "İndus Suları Müqaviləsi"ni dondurması regionda humanitar böhran yaradarsa, vəziyyət daha da kəskinləşəcək. Ən təhlükəli ssenari isə səhv hesablamalar nəticəsində nüvə eskalasiyasıdır.



Narendra Modi



Məhəmməd Şahbaz Şərif

## PAKİSTAN MÖVQELƏRİNİ MÖHKƏMLƏNDİRİR

Pakistan da mövqelərini möhkəmləndirməyə çalışır. İslamabad Ankara ilə əlaqələrini gücləndirir. Baş nazir Məhəmməd Şahbaz Şərif İran, Türkiyə və Azərbaycana səfərlər edib, onlara dəstəklərinə görə təşəkkürünü bildirib. Türkiyə və Pakistan enerji, hərbi-sənaye kompleksində əməkdaşlığı artırmaq, Azərbaycanla birlikdə Orta Dəhlizi inkişaf etdirmək barədə razılıq əldə ediblər. Bu planlar Pakistanın ənənəvi müttəfiqi olan Çini də qane edir.

Pakistan Hərbi Dəniz Qüvvələri (HDQ) Hava Müstəqil Hərəkət (AIP) texnologiyası sahəsində Hindistanı qabaqlayaraq, böyük addım atıb. 2030-cu illərdə istifadəyə veriləcək "Hangor" sinfinə məxsus sualtı qayıqlar Pakistanın sualtı qayıq parkını gücləndirəcək. Pakistan HDQ son illərdə AIP texnologiyasını mənimsəmək məsələsində Hindistanı geridə qoyub. Hindistan P-75 "Scorpene" layihəsi çərçivəsində altıncı və sonuncu sualtı qayığını parkına qatsa da, texnologiya baxımından Pakistandan geri qalır. Hindistan HDQ-nin müasir texnologiya ilə təchiz edilmiş heç bir sualtı qayığı yoxdur. Halbuki Pakistan artıq öz HDQ-sinə Fransa istehsalı olan 3 ədəd "Agosta-90B" sinfinə məxsus sualtı qayığı daxil edib.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# PAŞİNYAN VƏ KEŞİŞLƏRİN SON SAVAŞI

Mübarizədə qurşaqdan aşağı zərbələr mərhələsinin başlanması son döyüşün həqiqətən də qanlı olacağına dəlalət edir. Kilsə "niyə Paşinyan rəsmi və dini nikahda deyil", - deyə suallar verir, o isə keşiş Baqratın öz dayısının həyat yoldaşı ilə münasibətlərinə eyham vurur.



RÜSTƏM QARAXANLI



Erməni apostol kilsəsi ilə baş nazir Nikol Paşinyan arasındakı gərginlik növbəti fazaya qədəm qoyub. Qarşılıqlı nifrətə əsaslanan və hətta şəxsi münasibətlər səviyyəsinə keçən bu ədavətin özəl tarixçəsi var. Ancaq güman ki, hazırda yaşanan sözlü qarşıdurmanın son həddə çatmasının əsas səbəbi gələn il keçirilməsi gözlənilən parlament seçkiləridir. Kilsə və keşişlər Paşinyana badalaq vura biləcək yeganə müxalif güc rolunda çıxış edirlər. Mübarizəyə hətta baş nazirin ailə üzvlərinin də cəlb olunması ona dəlalət edir ki, qarşıdakı bir il tərəflər arasında əsl ölüm-dirim mübarizəsi ilə müşayiət olunacaq.

### KEŞİŞLƏR ƏRKƏSÖYÜN STATUSLARINI İTİRMƏKDƏN QORXURLAR

Erməni kilsəsi heç vaxt siyasi proseslərdən kənarda olmayıb. Ermənilər özü-özlüyündə kilsə ətrafında formalaşmış xalqdır. Tarix boyu müstəqil dövlətçiliyi olmayan bu xalqın dövləti rolunu faktiki olaraq kilsə həyata keçirib. Kilsə iri pul vəsaitlərinin dövriyyə etdiyi əlahiddə funksiyalı siyasiləşmiş institut rolunu yerinə yetirib. Qriqoryan keşişləri indi xüsusi ərkəsöyün statuslarını itirməkdən qorxurlar. Paşinyanın 2018-ci ildən etibarən mərhələ-mərhələ kilsə üzərində nəzarəti gücləndirmə və keşişlərin qol-qanadını sındırma tədbirlərini həyata keçirməsinin də başlıca məntiqi budur.

Ermənistanda kilsə Paşinyandan əvvəlki dövlət başçılarının hakimiyyət illərindəki münbit şəraitdən istifadə edib bürokratiya və oliqarxiya ilə sıx əməkdaşlığa nail olaraq, ayrıca siyasi vahidə çevrilməyi bacarıb. Ancaq Köçəryan-Sarqsyan cütlüyü dövründə tərəflər arasında yazılmayan əməkdaşlıq düsturu olub: siyasi hakimiyyət kilsənin işlərinə qarışmır, əvəzində loyallıq əldə edir. Kilsə isə bir sıra strateji siyasi amilləri nəzərə almaqla dövlətin işlərinə müdaxilə etmir.

## Eçmiədzinin tabulaşmış mövzusu

Nədir bu amillər? İlk növbədə Qarabağ məsələsi. Eçmiədzin Azərbaycana istənilən güzəşti inkar edib ki, rəsmi İrəvan da bu mövqeyi nəzərə alıb. Əslində, heç keçmiş hakimiyyətlərin də Azərbaycan torpaqlarının işğalı ilə bağlı mövqeyi kilsədəkilərin yanaşması ilə fərqlənməyib. Əli silahlı keşişlər bunun ən bariz sübutudur. Qarabağ faktoru keşişlərlə rəsmi İrəvan arasında tabulaşmış mövzu olub.

Məhz bu səbəbdən Paşinyanın hakimiyyətə gəlişi Eçmiədzini ölkənin əsas müxalif qüvvəsinə çevirib. Kilsənin yalnız ötən il keşiş Baqratın başladığı siyasi itaətsizlik hərəkatı ilə proseslərə qoşulmasına baxmayaraq, Eçmiədzin hər zaman başlıca pərdəarxası aktor olub.

Erməni kilsəsinin mühüm özəlliklərindən biri budur ki, o, təyinatca dini institut olsa da, mahiyyət etibarilə milli faktor üzərində bərqərar olmuş mexanizmdir. Məsələn, heç bir yerdə "rus kilsəsi", "fransız kilsəsi" kimi ifadələrə rast gəlinmir. Kilsələrdəki təriqətlər arasındakı ayrılıqlar pravoslav, katolik, ortodoksal və sair bu kimi terminlərlə ifadə edilib. Qriqoryan kilsəsi isə bütün dünyaya məhz erməni kilsəsi kimi təqdim olunur. İndi təsəvvür etmək çətindir ki, əsrlər boyu bu üstünlüklərə malik olan Eçmiədzinə siyasi hakimiyyət tərəfindən fəaliyyət məhdudiyyətləri yaradılır. Kilsənin mübarizədən savayı yolu qalmır və keşişlərin revanşizm hərəkatlarının alt qatında məhz hakimiyyətin əldən verilməsi qorxusu da dayanır.

### DİNİ-SİYASİ MÜXALİFƏT

Paşinyanla II Qaregin arasındakı budəfəki gərginliyin ilk qığılcımı rolunda baş nazirin bir paylaşımı çıxış etdi. Nikol ölkə ərazisində, xüsusilə də ucqarlarda olan kilsələrin bərbad vəziyyətinə diqqəti çəkərək, onların bir anbar qismində istifadə olunduqlarını iddia edir. Bu açıqlama ilə qarşıdakı siyasi mübarizənin fitili yandırılmış oldu. Ancaq məsələyə siyasətdən kənarda baxanda da, onun haqlı olduğu üzə çıxır: Ermənistanda onlarla kilsə var ki, nəinki təmir edilmir və aşınmış vəziyyətdədir, hətta onların çoxu mal-heyvanın saxlanılması üçün daldalanacaq qismində istifadə edilir. Kilsələrin içində mal-qaranın, donuzların saxlanılmasına dair kifayət qədər sübutlar var.

## Kilsənin milyonları haradadır?

Paşinyan bu kimi məqamlardan təsadüfən, ya heç bir siyasi gözləntisi yoxmuş kimi yararlanmır. Erməni kilsəsinin əlində böyük maliyyə vəsaitləri var. Kilsə biznes münasibətlərinin fəal iştirakçısıdır və daim oliqarxlarla gizlədilməyən tərəfdaş qismində çıxış edib. Bu pullar haradadır ki, kilsələr belə bərbad vəziyyətdədir? Nə səbəbdən kilsə əldə etdiyi maddi qazancdan vergi ödəmir? Paşinyanın kilsəyə ən çox ünvanladığı suallar bunlardır. O, bu yolla əsas siyasi rəqibinin ictimai nüfuzunu laxlatmaq və seçki ərəfəsində həlledici zərbələrini endirməyi planlaşdırır.

Kilsənin daxili siyasi proseslərə qoşulması həm də xaricdən - diaspordan idarə edilən erməni separatizminin son nəfəsdə olduğunun göstəricisidir. Hərbiyyəsi Azərbaycan tərəfindən darmadağın edilib, diplomatiyası arqumentsizləşdirilib və silahsızlaşdırılıb. Qarşıdan sülh müqaviləsinin imzalanması gəlir, İrəvanın bu reallıqdan qaçması mümkünsüzdür. Sülh müqaviləsi konstitusiyanın dəyişilməsi deməkdir, hakimiyyət cəmiyyətdə bununla bağlı müvafiq proseslərə artıq start verib. Bu reallıqda erməni separatizminin çıxış yolu nədir? Son "kozır"ları işə salmaq. Bu prosesdən hərənin öz gözləntisi var. Kilsə malik olduğu komfort zonasını, müxalifətin arxasında duran güclər isə özlərinin regional təsir mexanizmlərini bərpa etmək arzusundadır.

### QURŞAQDAN AŞAĞI ZƏRBƏLƏR MƏRHƏLƏSİ

Mübarizədə qurşaqdan aşağı zərbələr mərhələsinin başlanması son döyüşün həqiqətən də qanlı olacağına dəlalət edir: kilsə "niyə Paşinyan rəsmi və dini nikahda deyil", - deyə suallar verir, o isə keşiş Baqratın öz dayısının həyat yoldaşı ilə münasibətlərinə eyham vurur. Eçmiədzin Paşinyanın ailə üzvlərinin həyat tərzini qabartmaqla onu gözdən salmağa çalışır, baş nazir isə II Qareginin gizli qızının olduğunu iddia edir. Bu halda onun kilsəyə rəhbərlik etməsi faktiki olaraq qriqoryanlığa ziddir. Bütün bunlardan sonra bu mübarizə gərgin olmaya bilər?

## "QURBAN İBADƏTİ MÜSƏLMAN ÜÇÜN HƏM DƏ MƏNƏVİ YÜKSƏLİŞ VASİTƏSİDİR"

# FƏDAKARLIĞIN, PAYLAŞMAĞIN SİMVOLU



**Qurban bayramı qardaşlığı, dostluğu, fədakarlığı, xeyirxahlığı ehtiva edir. Bu günlər müsəlmanlar üçün həm ibadət, həm də sosial həmrəylik baxımından xüsusi əhəmiyyət daşıyır.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

İyunun 6-7-də Azərbaycanda Qurban bayramı qeyd edilir. Bu bayram İslam dünyasında iki müqəddəs bayramlardan biridir. Hər il hicri təqvimi ilə zilhiccə ayının 10-cu günündən başlayır. Qurban bayramı qardaşlığı, dostluğu, fədakarlığı, xeyirxahlığı ehtiva edir. Bu günlər müsəlmanlar üçün həm ibadət, həm də sosial həmrəylik baxımından xüsusi əhəmiyyət daşıyır. Bu günlərdə insanlar bir-birinə qarşılıqlı hörmət və sevgi ilə yanaşır, ehtiyacı olanlara yardım edir və birlikdə bayramın sevincini bölüşürlər.

Bayramın əhəmiyyəti, qaydaları, düz bildiyimiz səhvlərlə bağlı Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, Azərbaycan İlahiyyat İnstitutunun dosenti Elvüsal Məmmədovla söhbətləşdik.

### FƏDAKARLIĞIN VƏ NƏFS TƏRBİYƏSİNİN İFADƏSİ

Qurban bayramı İbrahim Peyğəmbərin Allaha olan itaətkarlığını və sədaqətini simvolizə edən hadisəyə əsaslanır. Əfsanəyə görə, Allah İbrahim Peyğəmbərdən oğlu İsmayılı qurban verməsini istəmiş, lakin onun itaətkarlığını gördükdən sonra bu əmrini ləğv edərək, əvəzində bir qoç göndərmişdi. Bu hadisə, müsəlmanlar üçün Allaha olan sədaqətin və fədakarlığın rəmzi olaraq qəbul edilib.

Elvüsal Məmmədov deyir ki, qurban kəsməyin fəlsəfəsi dərindir: "Qurban ibadəti özündə dərin mənalar və mühüm ictimai-mənəvi mesajlar daşıyır. Bu ibadət yalnız heyvan kəsməkdən ibarət deyil, Allaha itaət, təqva, ixlas, paylaşmaq və fədakarlıq kimi anlayışları özündə birləşdirir. Qurban kəsmək, ilk növbədə, Həzrət İbrahim Peyğəmbərin Allaha qeyd-şərtsiz itaətinin təcəssümüdür. O, ilahi əmri tərəddüdsüz yerinə yetirməyə hazır oldu və bu itaət simvolik olaraq bu gün də davam etdirilir. Müsəlmanlar qurban kəsərək bu itaəti və səmimiyyəti yaşadır, həyatlarına tətbiq edirlər. Bu ibadət, eyni zamanda, fədakarlığın və nəfs tərbiyəsinin ifadəsidir. İnsan öz malından xərcləyərək həm maddi, həm də mənəvi mənada nəfsini tərbiyə edir. "Qurani-Kərim"də qeyd olunur: "Onların nə əti, nə də qanı Allaha yetişər, Allaha yetişən yalnız sizin təqvanızdır". Bu ayə göstərir ki, qurbanın əsas mahiyyəti ixlas və Allaha yaxınlaşmaq niyyətidir. Qurban, insanın təqvasını, Allaha olan sevgisini və səmimiyyətini göstərməyin bir yoludur. Bu səbəbdən qurban ibadəti müsəlman üçün təkcə dini rituallar toplusu deyil, həm də mənəvi yüksəliş vasitəsidir".



Elvüsal Məmmədov

### "AİLƏ BÜDCƏSİNİ ÇƏTİN VƏZİYYƏTƏ SALACAQSA..."

İlahiyyatçı bildirir ki, qurban kəsmək məcburi ibadət deyil. Maddi cəhətdən imkanı yaxşı olan qurban kəsə bilər: "Bu ibadət sünnət olaraq qəbul edilir. Maddi imkanı olan müsəlman üçün qurban kəsmək tövsiyə olunan və savab bir əməldir. Əgər bir insan borc içində deyilsə, gündəlik ehtiyaclarını rahat şəkildə qarşılayırsa və əlavə vəsaiti varsa, onun qurban kəsməsi məqbul sayılır. Lakin bu ibadət şəxsin yaşayışına mənfi təsir göstərməməlidir. Əgər qurban kəsmək ailə büdcəsini çətin vəziyyətə salacaqsa, bu zaman həmin şəxs bu ibadətdən azaddır. Peyğəmbərimiz də qurbanı yalnız imkanı çatan şəxslərin kəsməsini tövsiyə edib. Ən vacibi isə budur ki, qurban kəsərkən niyyət səmimi olmalı, bu əməl heç bir şəxsi maraq güdülmədən, yalnız Allah rizası üçün yerinə yetirilməlidir. Kəsilən qurbanlıq ətlər üç hissəyə bölünərək, bir hissəsi ailəyə, digər hissəsi qohumlara və dostlara, üçüncü hissəsi isə ehtiyacı olanlara paylanır. Bu, cəmiyyətimizdə birlik, bərabərlik və xeyirxahlıq ənənələrinin gücləndirilməsinə xidmət edir".

## QOÇ, İRİBUYNUZLU MAL-QARA, DƏVƏ



Qurban bayramında kəsilən heyvanlarla bağlı müəyyən şərtlər var. Yəni, hər heyvanın ətini qurbanlıq hesab edə bilmərik. Həmsöhbətimiz deyir ki, qurbanlıq heyvan kimi qoç, iribuynuzlu mal-qara (məsələn, dana) və ya dəvə seçilə bilər: "Ən məqsədəuyğun olanı erkək heyvanın seçilməsidir. Qurbanlıq qoçun ən azı bir yaşında olması tövsiyə olunur. Lakin əgər 6-7 aylıq heyvan bir yaşındakı kimi görünürsə, onu da qurban kəsmək olar. Dana və dəvənin isə ən azı bir yaşında olması daha münasib sayılır. Qurbanlıq heyvanın bədənində hər hansı bir fiziki qüsur - buynuzunun və ya qulağının əskik olması, topallıq, göz çatışmazlığı və ya axtalanmış olması - onun kəsilməsini məsləhətsiz edir. Seçilən heyvan sağlam və zahirən gözəgəlimli olmalıdır. Çünki bu heyvan Allah rizası üçün qurban edilir və Ona təqdim ediləcək qurbanlıq da layiqli olmalıdır".

Qurbanlıq heyvanın ətindən və dərisindən qazanc əldə etməyə gəldikdə isə, ilahiyyatçı vurğulayır ki qurbandan maddi mənfəət götürmək yolverilməzdir: "Qurbanlıq heyvandan qazanc məqsədilə istifadə etmək düzgün deyil. Qurban ibadəti yalnız Allah rizası üçün edilir və ondan maddi mənfəət götürmək yolverilməzdir".

BƏLƏDÇİLİKDƏN BAŞLAYIB QLOBAL NAİLİYYƏTƏ İMZA ATAN HƏMYERLİMİZİN UĞUR HEKAYƏSİ

# ABŞ-DƏ ŞİRKƏTİ BİRİNCİ SEÇİLƏN AZƏRBAYCANLI



SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az


**Yaqub Rəhimov:** “Təsəvvür edin, sizə zəng gəlir, gələn zəngin 5-15 saniyə ərzində fırıldaqçı, yaxud real insan olduğunu müəyyənləşdirirsiniz. Həmçinin, əgər siz zəngə aldanmısınızsa, sızmış məxfi datanın da qarşısı alınır. Proqram hətta süni intellekt tərəfindən yaradılan səsi də aşkarlayır”.



İnsan həyatını topa bənzədir. Deyir ki, top özü-özünə havaya qalxa bilmir, o yerə zərbə ilə vurulmalıdır ki, sıçraya bilsin. Yerə vurulmaq anı isə bizə verilən dərsdir. Hesab edir ki, ya dərs almalıyıq, ya qarşı çıxmalıyıq. Dərs aldıqda həyat sənə yaxşı davranır və top kimi üzü yuxarı hərəkət edirsən.

Müsahibimiz tanınmış sahibkar, süni intellekt modelləri vasitəsilə risklərin təhlili, fırıldaqçılığın aşkarlanması və məlumat məxfiliyinin qorunmasında bizneslərə həllər təqdim edən “Polygraf AI”nin baş icraçı direktoru, Azərbaycanı xaricdə ticarətçi deyil, texnologiya ölkəsi kimi tanıtmağı qarşısına məqsəd qoyan Yaqub Rəhimovdur.

Naxçıvanda anadan olub. Anası fizika müəllimi, atası fotoqrafdır. Dörd yaşında yazıb-oxumağı öyrənir, altı yaşında yuxarı siniflərlə riyazi bilikləri ilə rəqabət aparır. O qədər fərqlənir ki, hətta birinci sinif müəllimi Rəna xanım ona balaca filosof deyir. Hansı ki, bu filosof gələcəkdə “Target Signals” şirkətini təsis edir, “Diversey Europe” şirkətində satınalma mütəxəssisi kimi çalışır, “IronFX”də biznesin inkişafı üzrə rəhbər olur. Hazırda isə həmsöhbətimiz ABŞ-də təsisçisi olduğu “Polygraf AI” ilə qlobal uğura imza atıb.

### “13 YAŞIMDA GÜNƏ 150 DOLLAR QAZANIRDIM”

● **Yaqub bəy, 12-13 yaşınızdan pul qazanmısınız. 13 yaşlı uşaq günə 150 dolları necə qazanırdı?**

● Liseydə təhsil alır, yataqxanada qalırdım. Bir dəfə yataqxanadan evə qayıdarkən Möminə Xatun türbəsinin yanından keçəndə gördüm ki, ingilis turistlər türbə ilə maraqlanmaq istəyirlər. Əlimdə yüklə yaxınlaşdım ki, köməyə ehtiyacınız varsa, kömək edə bilərəm. Mənə təəccüblə baxıb soruşdular ki, bu, sənin işindir? Bu söz sanki mənə fürsət verdi. Dedim ki, işim deyil, amma bəyənsəniz ödəniş edə bilərsiniz. Həmin vaxtdan, hər həftə yataqxanadan çıxanda o türbənin yanına gedir, turistlərə bələdçilik edirdim. Bir günə 150-250 dollar qazanırdım.

● **Yəqin ki, azyaşlı uşağın bu qədər pulunun olması valideynlərinizi narahat edib...**

● Bəli. Yadımdadır, həmin il maddi sıxıntılarımız var idi və ailəm liseydə təhsil haqqımı ödəməkdə çətinlik çəkirdi. Yenə eyni qaydada dərsdən çıxdım, türbənin yanında 40-60 nəfər turist var idi. Həmin gün təxminən 400 dollar qazandım. Liseyə qayıtdım və təhsil haqqımı ödədim. Anam maaş alan kimi bütün gəlirini mənim təhsilim üçün verirdi. Ödəniş etmək istəyəndə, təhsil haqqının ödənildiyini bilib. Həmin il də şagirdlərdən biri oğurluğa görə məktəbdən qovulmuşdu. Anamın da ağlına dərhal o gəldi. Narahat oldu ki, uşaq bu qədər pulu haradan tapıb. Buna görə atamla ciddi mübahisəmiz olmuşdu.

### “PULUN QİYMƏTİNİ ÖYRƏNDİM”

● **Bəs ABŞ ilə yolunuz necə kəsişdi?**

● 10-cu sinifdə “Flex” proqramı ilə ABŞ-yə getdim. Evində yaşadığım ailə onlayn ticarətlə məşğul idi. Bank sahəsində işləyirdilər. Mən onlardan ticarəti öyrəndim. Evin sahibi ağlınıza gəlməyəcək dərəcədə pulgir idi. Hətta soyuducunun qapısına qıfıl qoymuşdu ki, gündə iki dəfə istifadə edilməlidir. Sonra bildim ki, o, çox möhtəşəm insandır və pulunu yığır, qənaət edirdi ki, başqalarına kömək olsun. Mən pulun qiymətini ondan öyrəndim. 2006-cı ildə Azərbaycana qayıtdım, ali təhsil üçün imtahan verdim. Ailəm uzağa getməyimi istəmədiyi üçün Naxçıvan Dövlət Universitetinə qəbul oldum. Səhərlər universitet, günortalar mobil operatorlardan birində müştəri xidməti, gecələr də yapon səhmlərinin ticarəti ilə məşğul olurdum.

*“10-cu sinifdə “Flex” proqramı ilə ABŞ-yə getdim. Evində yaşadığım ailə onlayn ticarətlə məşğul idi. Bank sahəsində işləyirdilər. Mən onlardan ticarəti öyrəndim. Evin sahibi ağlınıza gəlməyəcək dərəcədə pulgir idi. Hətta soyuducunun qapısına qıfıl qoymuşdu ki, gündə iki dəfə istifadə edilməlidir.”*

● **Bələdçilik, müəllimlik, ticarət... Yaşınız az olsa da, iş həyatınızdan əskik olmayıb. Bəs, sizcə, həyatınızın dönüş nöqtəsi nə olub?**

● 2007-ci ildə Gürcüstanda qatıldığım kurs həyatımın dönüş nöqtəsi oldu. Çünki o vaxta qədər həyatı həmişə iş üçün görürdüm. Hədəflərim yaxşı iş tapmaq, işləmək idi. Kursda azad iqtisadiyyata fokuslanan, tanınmış professor Ken Schoolland ilə tanış oldum. Onlar düşünürdülər ki, sənin dövlətdən və digərlərindən asılılığın olmamalı, heç nəyi başqasından gözləməməlisən. Bu, məndə dönüş nöqtəsi oldu. Məhz bundan sonra maliyyə bazarına daha ciddi baxmağa başladım və xarici bir investorun kiçik bir investisiyasını çox böyük bir məbləğə qaldıra bildim. Lakin sonra çox miqdarda itki də etdim.

● **Eniş hansı səbəblərdən baş verdi?**

● Burada həm şans, həm zamanın düzgün idarə olunması, həm də risk faktorunu düzgün seçmək rol oynayır. Ticarətdə müəyyən nöqtədən sonra insanın özünə inamı o qədər yuxarı qalxır ki, qeyri-düzgün risk faktorları götürməyə başlayırsan. Ondan sonra aşağı doğru enirsən.

### “PLATFORMANI DÜNYANIN ƏN BÖYÜK BROKERİNƏ ÇEVİRDİK”

● **Fəaliyyətinizi burada saxlayıb, xaricdə təhsil almağa qərar verirsiniz. Lakin həyatın ən sərt üzü ilə məhz burada rastlaşırsınız. Bəs ən dibdən sonra yüksəlişiniz necə oldu?**

● Bəli, 2008-ci ildə xaricdə təhsil üzrə dövlət proqramına qəbul oldum. 19 yaşımda o təqaüdü qazanan ilk iki qrupda idim və təhsil üçün Niderlanda getdim. Lakin təqaüdüm hələ ödənilməmişdi. Mənə dedilər ki, sən get, ödəniş hesabına köçəcək. 1200 dollarla getdim, pulumun çox hissəsini yataqxanaya köçürdüm. Birinci həftənin sonunda ciblərim boşalmışdı. Həftəlik 1-2 avro ilə yaşamalı idim, bu da mümkün deyil. Çox böyük depressiyaya düşdüm. İkinci ay gəldi, təqaüdüm yenə ödənilmədi, mənə bildiriş gəldi ki, ödənişi etməsən, yataqxanadan çıxarılacaqsan. Bu müddətdə də anamın səhhətində ciddi problemlər yaşanırdı və çox böyük müalicə prosesindən keçməli idi. Müalicəni araşdırdım, kursun təqribi 300-400 min dollarlıq xərci var idi. Bunlar 19 yaşlı bir gənc üçün çətin sınaqlardır. O vəziyyətdə mənə yaxın duran da yox idi. Universitetdə yalnız bir nəfər tələbə yoldaşım problemimi görüb mənə kömək olmağa çalışdı. Həmin xanım hazırda həyat yoldaşımdır. Bu hadisələrin ardınca həyatım dəyişməyə başladı.

● **“Dib”i yaşadıqdan sonra ilk işiniz nə oldu?**

● İlk şirkətimiz “Target Signals”ı yaratdım. “Facebook”da böyük izləyici kütləm var idi. Onlara əsaslanıb, sosial ticarət platforması qurdum. 2010-cu ildə bunu rəsmi şirkətə çevirdim. Sonra dostumla platformanı qurduq. Üç ayda 10 min istifadəçi kütləsinə çatdıq. Bu müddətdə yenə də anamın sağlamlığı ilə bağlı problemlər davam edirdi. Xərcləri qarşılamaq üçün şirkəti satmaq qərarına gəldim. Şirkət satın alındı, universitetə davam etdim. Şirkətdə əsas fərqliliyimiz ondan ibarət idi ki, biz professional ticarətçiləri həvəskar ticarətçilərlə əlaqələndirib onların ticarətini həvəskar ticarətçilərin hesablarına kopyalayırdıq və eyni zamanda “Finans Affiliate” (satış ortaqlığı) strukturunu həyata keçirirdik. Qısa desək, mən sizə müştəri gətirirəm, 10 dollar qazanırsınız, müştərini mən gətirdiyim üçün bir dollar mənə ödəyirsiniz. Bu sistemi maliyyə bazarlarına təqdim etdim. Brokerlərdə sıçrayış yarandı. Universitet tezisimi də bu mövzuda yazdım. Bir çox brokerə satdım, universiteti bitirəndən sonra “İron FX” adlı bir broker məni biznes developer olaraq dəvət etdi. 18 ay ərzində biz bu platformanı dünyanın ən böyük brokerinə çevirdik. Sonra bu sahədə müəyyən problemləri gördüm və bu problemin həllini yaratmaq üçün işdən ayrılmaq qərarına gəldim.

● **Məhz bu problemin həlli üçün “7Marketz”i yaratdınız?**

● Bəli. Problemi görmək bir, bununla bağlı heç nə edə bilməmək ikinci hissədir. İşdən ayrıldım və bu problemin həllini özümdə gördüm. “7Marketz”də ilk işimiz tələbə yoldaşım Quyen Nong və yaxın dostum Dr. Yury Sofranaunun qurduğu AtoZForex.com platformasını satın almaq oldu. “AtoZForex”də üç dost birlikdə brokerlər üçün sertifikatlaşma prosesini yaratdıq. Hər bir brokerə özümüz investisiya edir, orada hesab açır, onlara dair hesabat hazırlayırdıq və cəmiyyətə açıq sertifikat verirdik. Mənfilikləri də özlərinə göndərir və izah edirdik. “7Marketz” bir neçə il ərzində genişləndi, fərqli ölkələrdən fərqli brendləri aldıq. Əsas fikrimiz bunu böyütmək idi. 2020-ci ildə şirkətin nümayəndəliyini açmaq üçün ABŞ-yə gəldim. Bildiyiniz kimi həmin il bütün dünyanın qapıları bağlandı və mən də ABŞ-də qaldım. Sevindirici o idi ki, yoldaşım və oğlum da yanımda idi, ailə parçalanmadı. Böhran vəziyyətində bir neçə aydan sonra “7Marketz” satıldı.

● **Yenidən sıfıra qayıtdınız?**

● Bəzən kiçik nüanslar böyük problemlər yaradır. Çox çətin prosesdən keçdik. ABŞ-də ev tapmaq, xüsusilə də pandemiya dövründə rahat deyildi. Yenə də həyatımın ən çətin dönəmlərindən biri idi. Bir dostum mənə yazdı ki, təzə fond qurmaq istəyirəm, kömək edə bilərsən? Razılaşdıq. Mən ona kömək etdim, o da məni yaşamaq üçün evlə təmin etdi. Hyustonda, Texasda 100 milyon dollarlıq fond qurduq. Lakin özümü investisiya sahəsində tapa bilmədim, bu, məni cəlb etmədi. Yeni fürsətlər axtarışında idim. 2021-ci ildə Texasda həyatımda görmədiyim təbiət hadisəsi ilə rastlaşdım. Fevralın 14-də qış fırtınasında avtomobilim sıradan çıxdı. Maşını satan şirkətə zəng etdim, dedilər ki, bu, fors-major haldır, xərcləri özünüz qarşılamalısınız. Bu mövzuda şirkət haqqında onlayn mənfi rəy yazdım. Bir neçə gün sonra gördüm ki, rəyim silinib. Platformaya yazdım ki, rəyim niyə silinib? Dedilər bizim botlara qarşı tolerantlığımız yoxdur. Sübut edə bilmədim ki, bot deyil, bu, mənim başıma gəlib. Bu zaman məndə ideya yarandı. Qısacası, botları müəyyənləşdirən bot yazdıq və platformaya yüklədik. Hətta “Fox News” bununla bağlı xəbər hazırladı. Bu xəbərdən sonra 10 minə yaxın istifadəçi, 300 biznes qeydiyyatdan keçdi. Bu verilişdən bir neçə həftə sonra “Beverly Hills Family Office Network” məni spiker olaraq bir tədbirə dəvət etmişdi. Tədbirdə dünyanın ən zəngin ailələrindən biri olan Quqqenheim ailəsinin nümayəndəsi ilə tanış olduq və o, mənə ideyamı biznesə çevirəcəyim təqdirdə investisiya etmək istədiyini bildirdi.




## BİZNESLƏRİN ÜÇ PROBLEMİ

● **Hazırda qlobal yarışların qalibi olan “Poligraf Aİ” bu ideyanın üzərində yarandı?**

● Bəli. 300-ə yaxın bizneslə müsahibələr apardıqdan sonra biz bizneslərin hazırda üç ən böyük probleminin olduğunu aşkar etdik. Bunlardan birincisi riskdir, özlərinin xəbəri olmadan rəqəmsal risklə qarşılaşırlar, ikincisi məxfilik, üçüncüsü fırıldaqçılıqdır. Fırıldaqçılıqla bağlı rəqəmlər həddindən artıq astronomikdir. Təsəvvür edin, 2023-cü ildə fırıldaqçılar ABŞ-də bizneslərdən 2,8 milyard dollarlıq oğurluq ediblər. 2024-cü ildə bu rəqəm 12 milyard dollara qalxıb. Biz də müsahibələrdə topladığımız məlumatları və ətrafımızdakı ekspertlərin fikirlərini nəzərə alaraq, özümüz üçün bu problemləri aşkarlayan süni intellekt proqramı yaratdıq. Təsəvvür edin, sizə zəng gəlir, gələn zəngin 5-15 saniyə ərzində fırıldaqçı, yaxud real insan olduğunu müəyyənləşdirirsiniz. Əgər siz zəngə aldanmısınızsa, sızmış məxfi datanın da qarşısı alınır. Proqram hətta süni intellekt tərəfindən yaradılan səsi də aşkarlayır. İstər sosial şəbəkələrdə, istər mailinizdə yazıların süni intellekt, yoxsa insan tərəfindən yazıldığını və ya hansı süni intellekt alətindən istifadə olunduğunu dərhal görürsünüz. Üçüncüsü məxfilikdir. Əgər bilmədən məxfi məlumatları bölüşürsünüzsə, bunu tapır və sizə göstəririk. Bu baxımdan, bizim həllimiz dünyada liderdir. Həm dövlət, həm özəl sektorda səhiyyə və maliyyə sahələrində fəaliyyət göstəririk.



### “700 ŞİRKƏT ARASINDA BİRİNCİ SEÇİLDİK”

● **Təsadüfi deyil ki, qlobal uğura imza ataraq “SXSW 2025”də ən yaxşı texnologiya şirkəti mükafatını qazanmısınız...**

● SXSW (South by Southwest) yarışmasında həm “Biznes, Smart data, FinTex və Gələcəyin İş Dünyası” kateqoriyasında birinci yeri tutduq, həm də ümumi kateqoriyalar üzrə bütün şirkətləri geridə qoyaraq “Best in Show Tech” (Tədbirin ən yaxşı texnologiyası) mükafatı ilə ikiqat qələbə qazandıq. Bu tədbir dünyada bu sahə üzrə ən böyük 5-6 tədbirdən biridir. 700 şirkət arasında birinci seçildik. Mən hətta bunu gözləmirdim və tədbir bitmədən oradan ayrılımışdım. Çünki orada olan bizneslərin hər biri çox böyük vençur fondlar tərəfindən dəstəklənirdi.

● **Bir azərbaycanlı olaraq ABŞ kimi nəhəng ölkədə texnologiya sahəsində seçilmək necə hissdir?**

● Mənim üçün əhəmiyyətli olan arxamda qoyacağım izdir. Təbii ki, biznes sahəsində fəaliyyət göstəririk və gəlir əhəmiyyətlidir. Qiymət və dəyər eyni anlayış deyil. Bir məhsulun qiyməti 100 dollar ola bilər, amma o, əgər mənim bir milyonluq işimi həyata keçirməyə kömək olursa, dəyəri milyondur. O səbəbdən bizim üçün əhəmiyyətli olan ən vacib nöqtələrdən biri, arxamızda qoyduğumuz izdir. Mən azərbaycanlıyam, bunu həmişə, hər yerdə qabardıram. Bu səbəbdən də vətəndaşlığımı dəyişməmişəm. Fikrimcə, azərbaycanlı tərəfindən qurulan şirkətin belə nüfuzlu tədbirdə qalib olması, ölkəni tanıtmaq üçün xərclənən milyonluq reklamlardan qiymətlidir.

# SOCAR-IN SIFIR EMİSSİYA HƏDƏFİ

SOCAR 2050-ci ilə qədər sıfır emissiyalı şirkətə çevriləcək. Bu məqsədlə nəzərdə tutulan strategiya üç təməl üzərində qurulacaq.




Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) 2035-ci ilə qədər əsasən qazla işləyən enerji, həmçinin bərpa olunan enerji qarışıq portfelinə malik şirkətə çevrilməyi hədəfləyir. "Report" xəbər verir ki, bunu SOCAR-ın vitse-prezidenti Əfqan İsayev 30-cu Yubiley Bakı Enerji Forumu çərçivəsində bildirib.

### QARIŞIQ PORTFELƏ MALİK ENERJİ ŞİRKƏTİ

Onun sözlərinə görə, SOCAR qlobal miqyasda sərfəli, davamlı və təhlükəsiz enerji təmin edən milli enerji şirkətinə çevrilmək üçün çox aydın baxış müəyyən edib: "2035-ci ilə qədər biz əsasən qazla işləyən enerji, həmçinin bərpa olunan enerji qarışıq portfelinə malik enerji şirkətinə çevriləcəyik. Biz təbii qaz olmadan ədalətli, sərfəli, ən əsası, təmiz enerjiyə keçidi təmin edə bilməyəcəyik. Bu, sadəcə mümkün deyil".

## "Biz strategiyamızı üç təməl üzərində quracağıq"

Vitse-prezident deyib ki, SOCAR 2050-ci ilə qədər sıfır emissiyalı şirkətə çevriləcək: "Biz strategiyamızı üç təməl üzərində quracağıq. Birincisi, əsas fəaliyyətin dekarbonizasiyasıdır. Biz artıq buna başlamışıq. İkincisi, korporativ mədəniyyəti dəyişdirməkdir və bu, son dərəcə vacibdir. Məsələn, biz şirkətin təşkilati strukturunu dəyişdirdik və yaradıcılıq çatışmazlığı üçün enerji keçidi və dekarbonizasiya adlanan yeni bir seqment təqdim etdik".

### "BU, ŞƏFFAFLIĞI TƏMİN EDİR"

Ə.İsayev bildirib ki, bu, şəffaflığı təmin edir, hər kəs nə üçün məsuliyyət daşıdığını başa düşür: "Üçüncü təməl aşağı karbonlu biznesə daxil olmaqdır. Biz buna da başlamışıq və bu gün danışdığımız aşağı karbonlu bizneslərdən biri bərpa olunan enerji istehsalıdır. Beləliklə, davamlı, sərfəli, təhlükəsiz enerji təmin edən enerji şirkətinə çevrilmək strategiyamız üçün çox vacibdir".




# Trendyol və PAŞA Holding ideya marafonu təşkil etdi

Dünyanın aparıcı elektron ticarət platformalarından biri və Türkiyənin aparıcı e-ticarət platforması Trendyol, PAŞA Holding ilə birlikdə "Sosial təsir üçün Hakaton" ("Hack for social impact") adlı rəqəmsal ideya marafonu (ideyaton) təşkil edib. Tədbir PAŞA Holding-in "Əlaçı" təqaüd proqramının 100-ə yaxın məzununu bir araya gətirib.

Təşəbbüsün məqsədi sosialyönümlü fəaliyyəti təşviq etmək, sosial təsir yaradan rəqəmsal həllərin formalaşmasına şərait yaratmaq, inklüzivliyin təmin olunmasına dəstək vermək, sosial və ekoloji maarifləndirmə aparmaq idi.

Marafona qatılan komandalar müxtəlif sahələri əhatə edən və xüsusilə həssas əhali qruplarının həyat keyfiyyətinin yaxşılaşdırılması məqsədi daşıyan innovativ ideyalar üzərində çalışıb, sosial məsələlərə yaradıcı və texnoloji əsaslı həll yolları axtarıblar.

Tədbirin sonunda daha innovativ və sosial təsir gücü böyük olan ideyalar mükafatlandırılıb. I yerə əlilliyi olan şəxslərin şəhər daxilində təhlükəsiz və müstəqil hərəkətini asanlaşdıran "YoldAIq" adlı ağıllı mobil tətbiq layihəsi ilə "SocioSapiens" komandası layiq görülüb. II yeri "Mindsbridge" komandası məişət zorakılığına məruz qalan qadınlara psixoloji yardım və reabilitasiya dəstəyi təklif edən "SƏS" platforması ideyası ilə qazanıb. III yeri isə "QayğıBot"- yaşlı və sosial baxımdan təcrid olunmuş şəxsləri dəstəkləmək məqsədi daşıyan innovativ layihə ilə"Thundersbolt" komandası tutub.

İdeya marafonunda qalib komandalar Trendyol tərəfindən təltif olunublar.

Trendyol fəaliyyət göstərdiyi ölkələrdə dayanıqlılıq və sosial təsir proqramları ilə cəmiyyətə töhfə verir. PAŞA Holding-in korporativ sosial məsuliyyət (KSM) strategiyasında təhsil mövzusu mühüm yer tutur. Trendyol və PAŞA Holding birlikdə bu istiqamətdə müxtəlif layihələr həyata keçirirlər.

# "NAR" UŞAQ HÜQUQLARINA DAİR KAMPANİYANIN TƏRƏFDAŞI OLDU

Sərfəli xidmətləri ilə tanınan "Nar" Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Regional İnkişaf İctimai Birliyi (RİİB) tərəfindən həyata keçirilən maarifləndirici kampaniyaya tərəfdaşlıq edərək, uşaqların hüquqlarının qorunması və bu sahədə məlumatlılığın artırılmasına dəstək verib.




Layihə çərçivəsində uşaqlar üçün maarifləndirici vörkşoplar, hüquqi bilikləri artıran təlimlər, interaktiv yarışmalar və əyləncəli fəaliyyətlər təşkil edilib. Bu fəaliyyətlərin əsas məqsədi uşaqlara hüquqlarını tanıtmaq, onları cəmiyyətin fəal üzvü olmağa təşviq etməkdir. Yarışlarda fəallıq göstərən uşaqlar bu ilin sonunda Milli Məclisdə baş tutacaq qanunvericilik simulyasiyasında iştirak edəcək və "uşaq hüquqları səfiri" seçiləcəklər. Layihənin növbəti mərhələsində isə ilin sonuna doğru hüquqi məlumat və yardım imkanlarını əhatə edəcək "Hüquqlarını tanı" adlı mobil tətbiqin istifadəyə verilməsi, 14 regionda maarifləndirici tədbirlərin keçirilməsi planlaşdırılıb.

Tədbirin açılış mərasimində çıxış edən "Nar"ın İctimaiyyətlə əlaqələr və korporativ ünsiyyət departamentinin direktoru Hökümə Kərimova bildirib: "Biz "Nar" olaraq, uşaqların öz hüquqlarını tanıması, qoruması və cəmiyyətin fəal üzvünə çevrilməsi üçün bu cür təşəbbüsləri önəmli hesab edirik. Hər bir uşağın təhlükəsiz və bərabər imkanlı mühitdə böyüməsi üçün üzərimizə düşən sosial məsuliyyəti qürurla icra edirik".

Sosial məsuliyyət strategiyasının əsas istiqamətlərindən biri olaraq, "Nar" uzun illərdir, təhsilin əlçatanlığı, bərabər imkanlar və həssas qruplara dəstək sahəsində ardıcıl layihələr həyata keçirir. Şirkət bu dəfə də uşaqların hüquqlarının tanıdılması və qorunması istiqamətində vacib bir təşəbbüsə dəstək verərək daha dayanıqlı gələcəyin qurulmasına öz töhfəsini verib.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son altı ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Tərənə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1193
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# HAVALAR TİKİNTİLƏRİ DƏ "VURUB"

2025-ci ilin ilk rübündə tikinti materiallarının istehsalı azalıb. Maraqlıdır ki, bu eniş işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı tikinti işlərinin getdiyi bir vaxta təsadüf edir. Bu isə sual doğurur: geniş tikinti ehtiyacları fonunda yerli istehsal niyə geriləyir?



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda tikinti materiallarının istehsalı azalıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin ilk rübündə bu sahədə 279,8 milyon manatlıq məhsul istehsal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 9,5 faiz azdır. Hesabat dövründə təbii asfaltın istehsalı 41,3 faiz, gips məmulatlarının istehsalı 29,2 faiz, beton istehsalı 12,8 faiz, tikinti şüşəsinin istehsalı 8,9 faiz, sement istehsalı isə 4 faiz azalıb. Maraqlıdır ki, bu eniş işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı tikinti işlərinin getdiyi bir vaxta təsadüf edir. Bu isə sual doğurur: geniş tikinti ehtiyacları fonunda yerli istehsal niyə geriləyir?




**"İSTEHSALÇILAR AZALIB"**

Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının tam hüquqlu üzvü İlham Behrudinin sözlərinə görə, əvvəlki illərə nisbətən tikinti aparan hüquqi şəxslərin sayı bir neçə dəfə azalıb: "Sözügedən inşaat materiallarının istehsalının azalmasının bir neçə səbəbləri var. Ən başlıca səbəbi odur ki, inşaat materiallarını istehlak edən təşkilatlar, müəssisələr, fərdlər ölkəmizdə azalıb. Bunun əsas səbəblərindən biri 2024-cü ildə yeni binaların inşaatının başlanılmasına icazələrin sərtləşdirilməsindən irəli gəlir. Hazırda Azərbaycanda yeni binaların tikintisi çox azalıb və ya tamamilə dayandırılıb. Fərdi tikintilərdə də azalma var. Fərdi tikintilərin sürətləndirilməsi üçün vətəndaşlara köməklik məqsədilə kreditlər ayrılmalıdır".

**"QURUCULUQ İŞLƏRİ YAY AYLARINDA İNTENSİVLƏŞİR"**

Əmlak eksperti Ramil Qasımzadənin sözlərinə görə, bu statistika qış aylarını əhatə edir. Qış aylarında bütün istehsal müəssisələrində azalma müşahidə edilir: "Çünki qış dövründə anbarlarda, ehtiyat məhsul olur. İstehsal müəssisələri də bazara əlavə məhsul çıxarmırlar. Yəni bu, mövsümlə əlaqəli azalmalardır".

R.Qasımzadənin sözlərinə görə, havaların qeyri-stabil keçməsi də rəqəmlərə öz təsirini göstərir: "Bu məhsullara tələbat aprel, may aylarından etibarən artır. Bu zaman yerli istehsalın həcmi də yavaş-yavaş yüksəlir. Amma qış mövsümü tikinti dövrü deyil. Əksinə, tikintilərin, xüsusən də fərdi yaşayış evlərinin inşası azalır. Çünki statistikada adıçəkilən məhsulların quruması zaman alır. Bu da iqtisadi cəhətdən tikinti üçün səmərəli deyil. Onları soyuq havalarda istifadə etmək qeyri-mümkündür. Amma havalar isinəndən sentyabr, oktyabr aylarına qədər tikinti mövsümü olur. Yay aylarında adıçəkilən məhsullar təbii quruma yolu ilə qurudulur. Bu dövrlərdə istehsal da artır".

Ekspert bildirir ki, yay aylarında tikintinin intensivləşməsi ən çox beton və dəmir məmulatlarına tələbatı yüksəldir. Həmin məhsullar yol ötürücülərinin tikintisində istifadə edilir. İnfrastruktur layihələri də öncədən bağlanılan müqavilələr əsasında həyata keçirilir.

## Yerli məhsullar bahalaşıb

R.Qasımzadənin sözlərinə görə, istehsalın azalması qiymətlərdə dəyişikliklərə səbəb olub: "Bəzi məhsulların qiymətində artımlar mövcuddur. Buna misal olaraq sementi göstərə bilərik. Lakin qiymət artımları gözlənilirdi. Xüsusilə də yerli istehsal edilən məhsullarda qiymət artımları daha çox müşahidə olunur.



Ramil Qasımzadə

Xaricdən gələn məhsulların isə bəzilərində qiymət artımı var idi. Sement və dəmir məmulatlarda da həmçinin. Qiymətlərin artan tempdə gedəcəyi proqnozlaşdırılır".

R.Qasımzadə bahalaşmanın səbəblərindən də danışdı: "Qiymətlərin artmasının müxtəlif səbəbləri var. Həm xammal qiymətləri yüksəlib, həm də əməkhaqları, sosial ödənişlər artıb. Bu kimi səbəblərlə şirkətlərin xərci artır. Onlar da məhsulun üzərinə əlavə dəyər qoymalı olurlar".

## "Ciddi tamamlanma prosesi həyata keçirilirdi"

İqtisadçı Xalid Kərimli də düşünür ki, qışın sərt keçməsi tələbata təsir edib: "Tikinti materiallarının istehsalının azalmasının əsas səbəbi iqtisadi aktivliklə bağlıdır. Burada digər xərc artıran məqamlar da var. Amma əsas səbəb tələbatdır. Bu ilin qış mövsümü bir az daha sərt keçdi. Təbii ki, bu da tikinti materialları bazarına təsirsiz ötüşmədi. Tikinti materiallarının istehsalında hava amili də böyük rol oynayır".

Ekspertin sözlərinə görə, iqtisadi səbəbləri də qeyd etməliyik: "Keçən il beynəlxalq tədbirlərlə əlaqədar ciddi tamamlanma prosesi həyata keçirilirdi. Yol tikintisi və sair sürətləndirilmişdi. Çalışılırdı ki, tikinti işləri tez bir zamanda yekunlaşsın. Həmçinin keçən il Qarabağ və Şərqi Zəngəzurun bərpasına vəsait bu ilə nisbətən daha çox nəzərdə tutulmuşdu. Əvvəl dörd milyard vəsait ayrılsa da, ilin ortalarında bir milyard manat da əlavə olundu. Keçən il tikinti məsələləri daha intensiv idi. Bu səbəbdən də istehsal keçən il daha çox idi".

X.Kərimlinin fikrincə, tikinti materialları istehsalı azalıbsa, tələbat da azdır. Bu zaman tikinti materialları bazarında qiymətlər aşağı düşür. Amma bizdə əksinə, qiymətlər artan tempdə görünür: "Bunun da səbəbi dizel yanacağının qiymətinin artmasındadır. Kommunal qiymətlər, minimum əməkhaqqının artımı kimi məsələlər də tikinti materiallarının xərcinin artmasına təsir göstərən amillərdir. Bu da bazardakı qiymətlərdə əks olunur".



Xalid Kərimli

UŞAQLARIMIZIN TƏHLÜKƏSİZLİYİ ARTIQ DAHA YAXŞI TƏMİN OLUNACAQ

# UŞAQ OYUN MEYDANÇALARI İLƏ BAĞLI YENİLİK

Oyun meydançaları uşaqların fiziki, psixoloji və sosial inkişafı üçün mühüm əhəmiyyət kəsb etsə də, onların əksəriyyəti yararsız haldadır. Onların bəzilərinə baxdıqda paslı dəmir konstruksiyalarla qarşılaşırıq.

**SEVİNC ABBASOVA**

Azərbaycanda uşaq oyun meydançaları ilə bağlı texniki reqlamentin təsdiq edilməsi gözlənilir. Artıq bu barədə layihə ictimai müzakirəyə çıxarılıb. Məlumata görə, layihə uşaq oyun meydançaları üçün avadanlıqların, örtüklərin və onlarla əlaqəli layihələndirmə, istehsal, quraşdırma, istismar, saxlanma, daşınma, utilizasiya proseslərinin təhlükəsizliyinə dair tələbləri müəyyən edir.

Maraqlıdır, hazırda ölkəmizdə uşaq oyun meydançalarının durumu hansı vəziyyətdədir?

### VƏZİYYƏT ÜRƏKAÇAN DEYİL

Tanınmış memar Cahid Həsənov bu sahədəki vəziyyəti ürəkaçan hesab etmir. Onun sözlərinə görə, oyun meydançaları uşaqların fiziki, psixoloji və sosial inkişafı üçün mühüm əhəmiyyət kəsb etsə də, əksəriyyəti yararsız haldadır: "Şəhərin müxtəlif yerlərində oyun meydançalarına baxdıqda paslı dəmir konstruksiyalarla qarşılaşırıq. Bəzi meydançalarda isə ümumiyyətlə döşəmə materialı yoxdur. Uşaqlar ya sərt torpaqda, ya da asfalt üzərində oynamaq məcburiyyətində qalırlar. Bu, onların zədələnmə riskini artırır. Məsələn, Bakı şəhərinin bəzi mikrorayonlarında yerləşən oyun meydançalarının əksəriyyəti sovet dövründə quraşdırılıb və o vaxtdan bəri çoxu əsaslı təmir görməyib. Bakı kimi müasir şəhərdə belə meydançalar təkcə estetik yox, həm də təhlükəsizlik baxımından ciddi problem sayılır".

### DÖVLƏT VƏ ÖZƏL SEKTORUN BİRGƏ İŞLƏMƏSİNƏ EHTİYAC VAR

Mütəxəssis bildirir ki, oyun meydançalarının yenilənməsi və yenilərinin salınması üçün dövlətlə özəl sektor birgə işləməlidir: "Məsələn, əvvəllər yeni tikilən binaların həyətində nəinki yaşıllıq ərazi, piyada gəzintisi üçün bir kvadratmetr belə yer yox idi. Son illər müvafiq qanunvericilikdə bununla bağlı tələblər dəyişdi. Artıq Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən bu məsələ ciddi nəzarətə götürülüb. Yəni, yeni tikililərdə yaşıllıq zonasının faizini də təyin ediblər. Bu yaxşı haldır və yaxın gələcəkdə öz bəhrəsini verəcək. Hesab edirəm ki, yeni yaşayış komplekslərində oyun meydançaları inşa etmək də tələb kimi qoyulmalıdır". Memarın fikrincə, bu meydançaların dayanıqlı olmasında peşəkar texniki xidmətin göstərilməsi də əsas şərtdir: "Park avadanlıqlarında aşınma, zədələnmə və ya potensial təhlükələri aşkar etmək üçün müntəzəm yoxlamalar tələb olunur".

## AVADANLIQLAR TƏHLÜKƏSİZLİK STANDARTLARINA CAVAB VERMƏLİDİR

Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev deyir ki, oyun meydançalarının layihələndirilməsi, yerləşdirilməsi və istismarı zamanı uşaqların təhlükəsizliyi ön planda olmalıdır: "Nəzərə almaq lazımdır ki, bu meydançalarda əyləncə, istirahət üçün azyaşlılar müəyyən qədər vaxt keçirirlər. Ona görə meydançalar qurularkən park avadanlığı beynəlxalq təşkilatlar tərəfindən müəyyən edilmiş sənaye təhlükəsizlik standartlarına mütləq cavab verməlidir. Bu standartlar oyun zamanı yaralanma riskini minimuma endirmək üçün struktur bütövlüyü, sıxılma təhlükəsi və şok udma kimi aspektləri əhatə edir. Xüsusilə güclü küləklərə və ya seysmik aktivliyə məruz qalan ərazilərdə istifadə zamanı yıxılma və ya yerdəyişmənin qarşısını almaq üçün montaj sistemləri yerə etibarlı şəkildə bərkidilməlidir".

Ekspert vurğulayır ki, meydançaların sayı çox olarsa, azyaşlılar asudə vaxtlarını daha səmərəli keçirərlər: "Son dövrlər çoxmənzilli yaşayış binalarının həyətlərində belə meydançalar inşa edilir. Əlbəttə, bunların sayı nə qədər çox olsa, o qədər yaxşıdır. Azyaşlılar asudə vaxtlarını daha sağlam və təhlükəsiz keçirərlər. Amma təhlükəsizlik məsələsində valideynlər də məsuliyyətli olmalıdır".



Fotolar: Rüfət Mikayılov - Global Photostock

## BÜTÜN MƏHSULLAR RUSİYA VƏ TÜRKİYƏDƏN İDXAL EDİLİR

Oyun avadanlıqlarının təchizi və montajı ilə məşğul olan iri şirkətlərdən birinin meneceri Saday Abbasov bildirir ki, uşaq oyun sahəsi qurmaq istəyənlər mütləq uşaq meydançası standartlarına, EN 1176 təhlükəsizlik normalarına və uşaq oyun avadanlıqlarının keyfiyyətinə diqqət yetirməlidirlər: "Uşaq oyun sahələri həm ictimai parklarda, həm də fərdi bağ sahələrində qurularkən, ilk növbədə, hava şəraitinə davamlı materiallardan hazırlanmış məhsullara üstünlük verilməlidir. Bakı kimi dəyişkən iqlimə malik şəhərlərdə, UV şüalarına və nəmə qarşı dözümlü materiallar uzunömürlü istifadə imkanı yaradır. Bundan başqa, uşaq oyun sahələrinin döşəməsində zərbə udan yer örtüklərinin istifadəsi uşaqların düşmə zamanı ciddi xəsarət alma riskini minimuma endirir".

Menecerin sözlərinə görə, mövcud uşaq oyun meydançalarının 80 faizi sovet dövründə yaradılıb: "Müşahidələr onu deməyə əsas verir ki, müstəqillik dönəmində həmin ərazilər baxımsız vəziyyətdə qalıb. Çünki park sektoru, uşaq və idman avadanlıqları bizim ölkədə inkişaf etmiş sahə sayılmır. İstər istehsalatı, istər satışı hələ də inkişaf etməyib. Bunun əsas səbəbi Azərbaycanda uşaq oyun məhsullarına dair istehsal fabrikinin olmamasıdır. Bütün məhsullar Rusiya, Türkiyə kimi ölkələrdən idxal edilir".

### YENİLƏNMƏ PROSESİ SÜRƏTLƏNİB

S.Abbasov vurğulayır ki, oyun meydançalarının yenilənməsi dövlətin diqqət mərkəzindədir: "Son 5-6 ildə bu istiqamətdə işlər daha da sürətlənib. Leyla xanım Əliyevanın dəstəyi ilə nəinki paytaxtda, eləcə də digər şəhər və rayonlarda abad məhəllələr yaradılır. Həmin məhəllələrdə uşaq oyun meydançaları tamamilə yenilənir. Paralel olaraq müvafiq icra hakimiyyətləri də parklarla bağlı layihə sifarişləri verirlər. Amma bu meydançaların tamamilə yenilənməsi üçün uzun illərə ehtiyac var. Digər tərəfdən, özəl sektor da bu işdə maraqlı olmalıdır".



Elmar Nurəliyev

# KÜRÜ İSTEHSALINDA REKORD ARTIM

Kürü istehsalımız beş dəfə artıb. Mütəxəssislərin fikrincə, istehsal üçün potensialımız genişdir. Bu templə illik 40 tonluq istehsal real olacaq. Bu göstərici bizə dünya üzrə ilk onluğa daxil olmaq imkanı yarada bilər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2025-ci ilin yanvar-mart ayları ərzində Azərbaycanda 529 kiloqram nərə balığı kürüsü istehsal edilib. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu göstəricinin həcmi 2024-cü ilin yanvar-mart ayları ilə müqayisədə 5.1 dəfə və ya 425.9 kiloqram çoxdur. Belə ki, hesabat dövründə Azərbaycanda 103.1 kiloqram nərə balığının kürüsü istehsal edilib.

Bəs qara kürü istehsalı sahəsindəki potensialımız necədir? Gələcəkdə də artımı davam etdirmək mümkün olacaqmı?

### SÜNİ BALIQARTIRMA MÜƏSSİSƏLƏRİNDƏKİ İŞİN NƏTİCƏSİ

Balıqçılar İttifaqının sədri Əfqan Əliyevin sözlərinə görə, artan statistik rəqəmlər təbii nərə balıqlarına aid deyil: "Söhbət Xəzərin təbii nərə balığı kürüsündən gedirsə, bu, müəmmalı rəqəmdir. Çünki təbii kürü artımı bir ildə beş dəfə artırsa, deməli, nərə balıqlarının artımı da buna uyğun olmalıdır. Bu rəqəm süni balıqartırma müəssisələrində qeydə alınıb".

Ə.Əliyevin fikrincə, təbii istehsal üçün potensialımız olsa da, ondan istifadə etmirik: "Nəinki kürü, ümumiyyətlə yerli balıqçılıq üçün ölkəmizin iqlim şəraiti mükəmməldir. Təəssüf ki, Azərbaycanda balıqçılıq təsərrüfatları xaricdən gələn balıqların qiyməti qarşısında rəqabətə tab gətirə bilmir. Azərbaycanda balıq istehsalının qarşısını alan amillərdən ən başlıcası xarici bazardır. İkincisi isə yerli balıq yemləri istehsalının baha başa gəlməsidir. Amma problemlər bununla da bitmir. Ölkədə mütəxəssis çatışmazlığı və təsərrüfatlarda su qıtlığı problemi də var".

### "BALIQÇILIQ SAHƏSİ YENİDƏN QURULACAQ"

Sədrin sözlərinə görə, bu ilin sonuna doğru həm balıq istehsalı, həm də kürü istehsalı artacaq: "Çünki hər iki sahə payızda aktivləşir. Hazırda biz 300 mindən artıq çəki balığı yetişdiririk. Bu balıqları payızda Xəzərə və ölkəmizin daxili su hövzələrinə buraxacağıq. İnanıram ki, bu da balıqçılığa öz töhfəsini verəcək. 2025-ci ildən sənaye balıqçılığı Kənd Təsərrüfatı Nazirliyinə verilib. Balıqçılıq sahəsi yenidən qurulacaq. Sahibkarlara dövlət dəstəyi göstərilsə, bu halda inkişaf mümkündür".




## HƏDƏF İLLİK 40 TONLUQ İSTEHSALDIR

Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyasının sədri Zaur Salmanlı isə kürü istehsalında artımın olduğunu təsdiqlədi: "Bəli, artım mövcuddur. Nərə cinsli balıqların böyüməsi üçün uzun zamana ehtiyac var. Məsələn, rus nərəsi, Kür nərəsi 7-9 il sonra kürü verir. Bölgə balığının isə 11-13-cü ildə bizim iqlim şəraitində kürü verməyi müşahidə olunur. O səbəbdən də 6-8 il öncə yetişdirilən balıqlar bu illərdə kürü verməyə başlayıb. Bu artım məxsusi olaraq bununla bağlıdır".

Z.Salmanlının sözlərinə görə, istehsal davam edərsə, rekord göstəricinin əldə edilməsi də mümkündür: "2027-ci ildə ciddi kürü istehsalı gözləyirik. Ölkəmizin həmin illər üçün potensialının 40 ton olacağı gözlənilir. Bu, ölkəmiz üçün böyük rəqəmdir. Hansı ki, hazırda dünyada 100-cü sırada belə deyilik. Amma bu göstərici ilə birdən-birə ilk onluğa daxil ola bilərik. Biz hazırda bu istehsal həcminə ciddi şəkildə hazırlaşırıq".

### "YERLİ İSTEHSAL MÜDAFİƏ OLUNMUR"

Sədr bu sahədəki mövcud problemlərə də toxundu: "Lakin istehsalın artımının qarşısını kəsən problemlər də var. Hansı ki, əsas problem daxili bazarın tam açıq olmasıdır. Yəni yerli istehsal demək olar ki, müdafiə olunmur. Keyfiyyətsiz və ucuz nərə cinsli balığın əti, kürüsü Çindən, Avropadan və digər ölkələrdən idxal olunur. Eyni zamanda, İran kimi nərə istehsalında ixtisaslaşmış ölkədən gömrük rüsumu olmadan təzə və dondurulmuş balıq idxal edilir. Bu da problemlərin ən ciddisidir".

Z.Salmanlı da düşünür ki, bu sahənin inkişafı üçün dövlət dəstəyi vacibdir: "Yuxarıda qeyd etdiyim hədəfə çatmaq üçün balıqçılığa, bu sahəyə dövlətdən dəstək lazımdır. Həmçinin sənaye sahəsində vergi tətbiq olunur. Xüsusən də vergi siyasətində güzəştlər edilməlidir. Bu məqsədlə Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə çalışırıq. Yəqin ki, digər qurumların da dəstəyi ilə balıq istehsalı sektoru güzəştlər əldə edə biləcək. Gələcəkdə bu problem də həllini tapacaq. Əvvəllər qeyd olunan problemlərin həlli yolu mücərrəd vəziyyətdə idi. Lakin dekabr ayında Prezidentin fərmanı ilə Kənd Təsərrüfatı Nazirliyinin yanında Balıqçılıq və Akvakultura Mərkəzi yaradıldı. Düşünürəm ki, özəl və dövlət sektor arasında yaranan effektiv əməkdaşlıq nəticəsində bu problemlər ən qısa zamanda həll olunacaq".

### 2025-Cİ İL BOYUNCA ARTIM MÜŞAHİDƏ OLUNMAĞA DAVAM EDƏCƏK

Sədrin sözlərinə görə, gələcək illərdə mövcud problemlər də həllini tapdıqdan sonra kürü istehsalımızı davamlı artıra biləcəyik: "Düşünürəm ki, 2025-ci il boyunca artım müşahidə olunmağa davam edəcək. İlin sonuna kimi ən pis halda beş ton qara kürü istehsal ediləcəyini proqnozlaşdırıram".






# ALTI QALEREYA, 5000-DƏN ÇOX ƏSƏR

**Şarjadakı İslam Sivilizasiyası Muzeyində V əsrdən başlayaraq XIV əsrə qədər dövrü əhatə edən unikal eksponatlar nümayiş etdirilir. Muzeyin qalereyaları ziyarətçiləri incəsənət, xəttatlıq, silahlar, əlyazmalar, erkən elmi yeniliklər barədə məlumatlandırır.**

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Şarja İslam Sivilizasiyası Muzeyi mühüm mədəni və turistik məkandır. Muzey Birləşmiş Ərəb Əmirliklərinin Şarja şəhərinin ürəyində - Əl-Məcərrə sahilində yerləşir.

Muzey 1996-cı il noyabrın 6-da Şarjanın İrs Bölgəsində açılıb. Kolleksiyaları çoxaldıqca muzeyin binasını da genişləndirmək lazım gəlib. Ərazidə əsasən ənənəvi əşyalar, tekstil məhsulları və s. satılan mağazaları olan bazar və ətrafındakı kafelər sökülərək yerində muzeyin böyük binası inşa olunub. Muzey 2008-ci ildə "Şarja İslam Sivilizasiyası Muzeyi" adı altında yenidən açılıb. Binanın tağları, mürəkkəb dizaynı, vitrajları və mərmər döşəməsi də içərisi qədər gözəldir.

## NƏFİS TARİXİ ƏSƏRLƏR

Muzeydə V əsrdən başlayaraq XIV əsrə qədər böyük İslam sivilizasiyasını əks etdirən unikal eksponatlar nümayiş etdirilir. Muzeyin qalereyaları - İslam incəsənəti, xəttatlıq, silahlar, əlyazmalar, erkən elmi yeniliklərdən bəhs edən eksponatlardan ibarətdir. Qalereyalarda ümumilikdə 5000-dən çox artefakt sərgilənir. Ziyarətçilər İslam tarixi, mədəniyyəti və kəşfləri ilə tanış olmaqdan zövq alırlar.

## QURANIN KÖHNƏ NÜSXƏLƏRİNƏ BAXMAQ İMKANI

Muzey altı geniş qalereya və sərgi sahələrindən ibarətdir. Birinci mərtəbədə müxtəlif texniki nailiyyətlər və keçmiş əsrlərin elmi işlərinin əks olunduğu qalereya var. Birinci mərtəbədə həm də əsas dini obyektlərin və atributların təqdim olunduğu zal yerləşir. Bu, muzeyin daimi kolleksiyası - "Əbu Bəkr İslam İnancı Qalereyası"dır.

Ekspozisiyalarda qədim "Qurani-Kərim"dən həmçinin müxtəlif xəttatlıq növlərindən, məscidlərin tikintisindən və dini bayramlardan bəhs edilir.

Ekspozisiyalarda ziyarətçilər Kəbənin fiziki maketini və ziyarət geyiminin orijinal hissələrini, nadir tarixi Quran əlyazmalarını, eləcə də dünyanın müxtəlif yerlərindən məscidləri və onların memarlığının maket fiqurlarını və şəkillərini görə bilərlər. Qalereya ziyarətçilərə iman, namaz, oruc, zəkat və həcc haqqında məlumat verir. Burada həmçinin Quranın köhnə nüsxələrinə baxmaq mümkündür.














## MÜSƏLMAN ALİMLƏRİNİN KƏŞFLƏRİ

İbn əl-Heysəm Elm və Texnologiya Qalereyasında ziyarətçilər qədim İslam tarixi boyu müsəlman alimlərinin kəşfləri və ixtiraları ilə tanış ola bilirlər. Mürəkkəb üçölçülü modellər, audiovizuallar və geniş məlumat panelləri astronomiya, tibb, coğrafiya, memarlıq, riyaziyyat, kimya, hərbi texnologiya, dəniz naviqasiyası və mühəndislik daxil olmaqla, bütün sahələrdə müsəlman alimləri tərəfindən edilmiş kəşflərin, ixtiraların və nəzəriyyələrin qrafikləri əks olunub.

İkinci mərtəbədə qədim keramika kolleksiyaları, müxtəlif qablar, metal məmulatlar, çox gözəl vazalar var. Ziyarətçilər xüsusilə silah kolleksiyasının qarşısında ayaq saxlayırlar. Burada müxtəlif bıçaqlar, qılınclar və odlu silahlar sərgilənir.

## DULUSÇULUQ, OYMA, TEKSTİL, XALÇAÇILIQ...

Daha dörd qalereya eramızın yeddinci əsrindən 20-ci əsrinə qədər uzanan dövrlərdə İslam sənətini nümayiş etdirir. Eksponatlar arasında dulusçuluq, ağac üzərində oyma, tekstil, əlyazmalar, xalçaçılıq nümunələri var.

Yeddinci qalereya Osmanlının şah əsərlərindən tutmuş fars xəttatlığına qədər eksponatlar nümayiş etdirir. Bələdçi məlumat verdi ki, bu qalereya Budapeşt, Malayziya və digər ölkələrin muzeyləri ilə birgə müntəzəm təşkil edilən müvəqqəti sərgilərə ev sahibliyi edir.

Muzeyin İslam sikkə kolleksiyaları Al Majarrah Qalereyasının kənarındakı atriumda nümayiş etdirilir. Ziyarətçilər monitorlar vasitəsilə bu sikkələrin tarixi və yaranması haqqında məlumat əldə edə bilirlər. İstənilən sikkənin bütün xırda detallarını böyüdücü şüşə ilə yoxlamaq mümkündür. Al Majarrah Müvəqqəti Sərgi Qalereyası ildə iki dəfə dünya səviyyəli sərgilərə ev sahibliyi edir.

## TƏDBİRLƏR ÜÇÜN MÜKƏMMƏL MƏKAN

Binanın günbəzinin daxili hissəsində gecə səmasının mozaikasını, bürcləri və ulduzları görmək mümkündür. Əl ilə yaradılmış sənət əsəri 24 karatlıq qızıldan ibarət olmaqla kiçik keramika parçalarından hazırlanıb.

Muzey tədbirlərin keçirilməsi üçün də mükəmməl məkandır. Burada seminarlar keçirilir, 6-12 yaşlı uşaqlar və onların ailələri hər şənbə günü praktiki fəaliyyətlərdə iştirak edirlər.



# YERLİ ƏNCİRƏ MARAQ AZALIB?




Əncir idxalımız 62 faiz artıb. Lakin bu meyvə ilə bağlı qədim zamanlardan gələn bağçılıq ənənələrimiz var idi. Əgər əncirlə bağlı da ixracdan asılı düşsək, bu zaman həmin ənənəni itirə bilərik.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Yayın sonu, payızın əvvəlində bazara çıxır. Hazırda mövsümü olmasa da, bu meyvədən dadlı mürəbbə və digər təamlar hazırlamaq mümkündür. Lakin bir çox məhsul kimi artıq ənciri də xaricdən idxal edirik. Belə ki, bu ilin yanvar-fevral aylarında Azərbaycana 119,1 min ABŞ dolları dəyərində 22,46 ton əncir idxal edilib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu, 2024-cü ilin eyni dövrünün göstəricisindən dəyər ifadəsində 59 faiz, kəmiyyət olaraq 62 faiz çoxdur. Hesabat dövründə Azərbaycan Türkiyədən 70,44 min ABŞ dolları dəyərində 10,72 ton, Özbəkistandan 40,56 min ABŞ dolları dəyərində 10,14 ton, İrandan 4,98 min ABŞ dolları dəyərində bir ton və Əfqanıstandan 3,11 min ABŞ dolları dəyərində 0,6 ton əncir alıb. Nəzərə alaq ki, ölkəmizdə yerli əncir bağları mövcuddur. Bəs o zaman bu məhsul üçün idxala yönəlmək nə dərəcədə doğrudur?

### “ƏNCİR ƏSASƏN HƏYƏTYANI SAHƏLƏRDƏ YETİŞDİRİLİR”

Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Vüqar Hüseynovun sözlərinə görə, əncir ölkəmizdə yetişsə də, kütləvi istehsalı mövcud deyil: “Əncir ölkəmizdə elə də geniş yayılmamış meyvədir. Bəzi bağlarda, həyətlərdə kiçik hektarlarda əkilir. Müəyyən yerlərdə bitir. Əncir əsasən həyətyanı sahələrdə yetişdirilir. Sadəcə, mövsümü tələbatı ödəmək üçündür. Əncir kənd təsərrüfatında əhəmiyyətli məhsul olmadığından əlimizdə statistikası yoxdur. Əncir ölkəmiz üçün öncəlik olmayan məhsuldur. Ağsuda qara əncir bağı salınıb. O da yerli bazara xidmət etmir. Məhsulu sırf Rusiya bazarına göndərilir. Ölkə ərazisində böyük əncir bağları mövcud deyil”.

V.Hüseynovun fikrincə, ənciri xaricdən sahibkarlar və quru meyvə istehsalı ilə məşğul olanlar gətirir: “Əncirin idxalı əsasən qurudulmuş formada olur. Bazarda quru əncirə tələbat olduğu üçün xaricdən gətirirlər. İdxal edilən 22 ton əncir əhalimizin sayı qarşısında olduqca kiçik rəqəmdir”.



Vüqar Hüseynov

### “XARİCİ ƏNCİR DAHA UCUZDUR”

İqtisadçı Pərviz Heydərov bildirdi ki, qədimdən ölkəmizdə bir sıra əncir sortları mövcuddur: “Bizdə “Sarı sabahi” və ya “Sarı əncir” sortu xüsusilə məşhurdur. Hansı ki, Abşeronda becərilir. Ümumiyyətlə, Azərbaycanda əncirin iki növü yayılıb. Bunlardan biri “mədəni əncir” adlanır və respublikada geniş miqyasda becərilir. Digəri isə “Hirkan ənciri”dir ki, o, yabanı halda Lənkəran zonasında yayılıb”.

P.Heydərovun sözlərinə görə, idxalın genişlənməsi iqtisadiyyatımız üçün də zərərdir: “Ölkəmizə bitkiçilik, bağçılıq, meyvə-tərəvəz və sair sahələrə aid məhsulların idxalı əvvəlcədən də mövcud idi, son illər ərzində isə daha da artıb. İdxalın belə böyük həcmdə olması onu göstərir ki, məhsul həm yerli bazar, həm də istehsal müəssisələri üçün gətirilib. Qeyd olunan tonda və həcmdə əncir idxalı ölkədən kənara valyuta axınıdır. Əgər məhsul ölkəyə kənardan gətirilirsə, deməli, onu gətirənlər yerli məhsulun istehsalında və tədarükündə maraqlı deyillər”.

İqtisadçının fikrincə, xarici məhsula tələbat yerli məhsuldan çoxdur: “İdxal artıbsa, tələbin artması ilə bağlı ola bilər. Yerli istehsal da tələbi qarşılaya bilmirsə, bu halda həmin meyvə kənardan gətirilir. Xeyli böyük konserv və emal müəssisələrimiz mövcuddur. Lakin onlar yerli xammaldan istifadə etmirlər. Xaricdən gələn məhsulu istifadə etməyə daha çox üstünlük verirlər. Bu da onun ucuz olması ilə bağlıdır”.




## “YERLİ MƏHSULUMUZ DAHA KEYFİYYƏTLİDİR”

P.Heydərov bu sahədəki problemlərə də toxundu: “Halbuki, həm adıçəkilən əncir məhsulu, həm də digər növ məhsullar üzrə ölkəmizin zəngin tarixi ənənələri və təcrübəsi mövcuddur. Hətta yerli məhsulumuz daha keyfiyyətli, rəqabət qabiliyyətlidir. İxrac qabiliyyəti də yüksəkdir. Əgər bütün bunlara baxmayaraq, yenə də idxal edilirsə, bu o deməkdir ki, xaricdən gətirmək daha ucuz başa gəlir. Yaxud da bu meyvənin istehsalını genişləndirmək üçün müvafiq şərait mövcud deyil. Külli miqdarda vəsait tələb olunur. Ola bilər ki, stimul, rentabellik aşağı səviyyədədir. Problem stimulverici amillərin olmamasında, ixrac imkanlarının darlığı, həmçinin yerli tələbatın düzgün ödənilməməsindədir”.

İqtisadçı düşünür ki, əgər istehsalı stimullaşdırsaq, həm idxala ehtiyac qalmaz, həm də məhsulumuzu ixrac edib qazanc əldə edə bilərik: “Hesab edirəm ki, idxalın genişlənməsi əncirdə də yerli ənənəni sona çatdıra bilər. Əgər yerli tələbatımızı ödəyə bilməsək, idxal daha da genişlənəcək. Bağçılığı inkişaf etdirməliyik. Fermerlərə müvafiq şərait yaradılmalıdır. Ənənənin ölməsinə icazə verməməliyik. Yerli məhsulumuzun becərilməsinin genişləndirilməsinin qayğısına qalmalıyıq. Bazarlara çıxışı asanlaşdırmalıyıq. İxrac imkanlarımızı da genişləndirməliyik ki, istehsalımız arta bilsin. İstehsal artarsa, idxalın da qarşısını almaq mümkün olacaq”.



Pərviz Heydərov

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
6 İYUN CÜMƏ 2025

**“Qarabağ”ın əsas hədəfi Çempionlar Liqasının Liqa mərhələsinə vəsiqə qazanmaq olacaq. “Sabah”ı Avropa Liqasında çətin rəqiblər gözləyir. “Araz-Naxçıvan”ın işi asan olmayacaq. “Zirə”dən gözləntilər böyükdür.**

# KLUBLARIMIZDAN AVROKUBOK GÖZLƏNTİLƏRİ

Azərbaycanda futbol mövsümünə mayın 31-də yekun vuruldu. Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda baş tutan ölkə kubokunun final matçı ilə. Həlledici qarşılaşmada Premyer Liqanı zirvədə tamamlayan “Qarabağ”la “finiş xətti”ni beşinci keçən “Sabah” üz-üzə gəldi. Gözlənilmədən “köhlən atlar”a 3:2 hesabı ilə qalib gələn “bayquşlar” qitə kuboklarına sonuncu vəsiqəyə sahib çıxdı. Vasili Berezutskinin rəhbərlik etdiyi kollektiv Avropa Liqasında şansını yoxlayacaq. Premyer Liqanı dördüncü pillədə bitirən, ümidini “Qarabağ”ın Azərbaycan Kubokunu qazanmasına bağlayan “Turan Tovuz” isə növbəti mövsümü gözləməli olacaq.

### “QARABAĞ” ÇEMPİONLAR LİQASINDA

Qurban Qurbanovun rəhbərlik etdiyi komanda Avropanın ən nüfuzlu klub turnirinə vəsiqə qazanmaqda çətinlik çəkmədi. Bununla belə, komandanın əvvəlki əzəmətindən xeyli uzaq düşdüyü aşkar görünür. Düzdür, “köhlən atlar” Çempionlar Liqasında mübarizəyə birbaşa II təsnifat mərhələsindən start verəcək. Özü də Qurban Qurbanovun rəhbərlik etdiyi kollektiv püşkatmada səpələnmişlərdən olacaq. Bu səbəbdən təmsilçimizin mümkün rəqibləri I təsnifat mərhələsindən gələcək zəif komandalar olacaq. Onu da əlavə edək ki, I təsnifat mərhələsinin püşkatması iyunun 17-də, II təsnifat mərhələsinin püşkü isə ertəsi gün atılacaq. Təbii olaraq “Qarabağ”ın əsas hədəfi Çempionlar Liqasının Liqa mərhələsinə vəsiqə qazanmaq olacaq. Bu çətin missiyanın öhdəsindən gəlmək üçün isə heyət mütləq gücləndirilməlidir. Müdafiə və yarımmüdafiə bölgələrinə də “yeni qan” tələb olunur. Qurban Qurbanov və klub rəhbərliyi də bunun fərqindədir və lazımi transferləri gerçəkləşdirməkdə israrlıdırlar.



**Foto:** Sabir Məmmədov-Global Photostock

## “SABAH” YAXŞI TRANSFERLƏR ETMƏLİDİR



Son anda, daha doğrusu, mayın 31-də özünü “Avropa qatarına atan” “Sabah” yay transfer dönəmindən ciddi faydalanmağa məhkumdur. Premyer Liqada qeyri-sabit çıxış bunu deməyə əsas verir. Kollektivin qarşısına həmişə yüksək hədəflər qoyan rəhbərliyin, çox güman ki, mövcud problemlərin həlli istiqamətində “yol xəritəsi” var. Onu da qeyd edək ki, “Sabah” Avropa Liqasının birinci təsnifat mərhələsindən mübarizəyə başlayacaq. Üstəlik, “bayquşlar” püşkatma zamanı səpələnməmişlər sırasında yer alacaq ki, bu da güclü rəqiblərlə qarşılaşmaq anlamına gəlir. Konkret desək, potensial rəqiblər “Şaxtyor” (Donetsk/Ukrayna), “Legiya” (Varşava/Polşa), “Partizan” (Serbiya), “Şerif” (Moldova), “ÇFR Kluj” (Rumıniya), “Hapoel” (Beer-Şeva, İsrail), “Selye” (Sloveniya), “Spartak” (Trnava/Slovakiya) klublarından biri ola bilər. Onu da qeyd edək ki, püşkatma iyunun 17-də, oyunlar isə iyulun 10-17-də keçiriləcək.

## “ZİRƏ” VƏ “ARAZ-NAXÇIVAN”I NƏ GÖZLƏYİR?



Azərbaycan təmsilçiləri Konfrans Liqasına II təsnifat mərhələsindən başlayacaqlar. “Araz-Naxçıvan”dan fərqli “Zirə”nin durumu daha ürəkaçandır. Birincisi, baş məşqçi Rəşad Sadıqov artıq oturuşmuş heyət formalaşdırıb və mövsümü gümüş medalla başa vuran kollektiv işlək mexanizmi xatırladır. İkincisi, paytaxt təmsilçisi yetərli avrokubok təcrübəsinə malikdir. Müəyyən əlavələrlə komandada rəqabəti daha da artırmaq mümkündür ki, klub rəhbərliyi də məhz bu yöndə əməli fəaliyyətə başlayıb. Hər şey plan üzrə gedərsə və püşkdə münasib rəqiblər düşərsə, “Zirə”ni turnirin Liqa mərhələsində görə bilərik.

“Araz-Naxçıvan”ın işi isə asan görünmür. Düzdür, komanda son mövsümdə tarixi uğurlara imza atdı. Elmar Baxşıyevin rəhbərlik etdiyi kollektiv Naxçıvan futbolu tarixində ilk dəfə Premyer Liqada bürünc medal qazanmaqla yanaşı, avrokuboklarda oynamaq imkanı əldə etdi. Özü də komanda bu nəticəyə ev oyunlarını doğma məkandan kənarda - Mərdəkanda keçirməklə imza atdı. Amma heyətin və maliyyə imkanlarının yetərsizliyi Avropada ciddi uğur qazanmaq ehtimalını azaldır. Düzdür, klub rəhbərliyi mövsüm bitən kimi heyətdə köklü dəyişikliyin anonsunu verdi. Amma bu məqamın özü də, demək olar ki, yenidən formalaşdırılacaq kollektivin bir müddət oyun planında “axsayacağına”, meydanda anlaşma baxımından çətinlik çəkəcəyinə səbəb olacaq. Ümid edək ki, “Araz-Naxçıvan” bu problemlərlə üzləşməyəcək və debüt mövsümündə azarkeşlərinə sevincli anlar yaşadacaq.

Sonda onu da xatırladaq ki, Konfrans Liqasında I təsnifat mərhələsinin püşkatması iyunun 17-də baş tutacaq. II təsnifat mərhələsinin püşkü isə ertəsi gün atılacaq.